AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

9 İYUN 2018-ci il ŞƏNBƏ № 128 (6161) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Prezident İlham Əliyev Qambiyanın xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Qambiya Respublikasının xarici işlər naziri Ousainu Darboenin başçılıq etdiyi, Qambiyanın əmək və infrastruktur naziri Bai Lamin Jobenin daxil olduğu nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Qambiya arasında dostluq əlaqələrinin mövcud olduğunu vurğulayaraq ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və BMT-də uğurlu əməkdaşlıq həyata keçirdiyini və bir-birini daim dəstəklədiyini məmnunluqla qeyd etdi. Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın ədalətli mövqeyinin Qambiya tərəfindən beynəlxalq platformada dəstəklənməsinə görə təşəkkürünü bildirdi.

Xarici işlər naziri Ousainu Darboe Qambiya Prezidenti Adama Barrounun salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Prezident Adama Barrou Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın böyük inkişafa nail olduğunu və bölgədə əməkdaşlığa, iqtisadi inkişafa, sülhün və təhlükəsizliyin təmin olunması işinə mühüm töhfə verdiyini bildirib. Nazir Ousainu Darboe Azərbaycan ilə Qambiyanın Qoşulmama Hərəkatında fəal iştirakını qeyd edərək ölkələrimizin İslam Əməkdaşlıq Təşkilatında, BMT-də bir-birini qarşılıqlı surətdə dəstəklədiyini vurğuladı. Ousainu Darboe daha sonra qeyd etdi ki, onun ölkəsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləyir və diqqətə çatdırdı ki, Qambiya Prezidenti Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edilməsini qətiyyətlə pisləyir.

Prezident İlham Əliyev Qambiya Prezidenti Adama Barrounun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Qambiya dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı Azərbaycan ilə Qambiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsinin vacibliyi qeyd edildi.

**AZƏRTAC**

## Prezident İlham Əliyev Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidentini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 8-də Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, Avropa Parlamentinin üzvü Yan Zahradili qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Yan Zahradilin sabah ölkəmizdə keçiriləcək Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının Bakı sammitində iştirakından məmnunluğunu bildirən dövlətimizin başçısı bu önəmli beynəlxalq forumun Azərbaycan paytaxtında təşkil olunmasını yüksək qiymətlənirdi.

Azərbaycana həm Avropada Mühafizəkarlar və İslahatçılar Alyansının prezidenti, həm Avropa Parlamentinin Beynəlxalq Ticarət Komitəsinin vitse-prezidenti, həm də Avropa Parlamentinin üzvü qismində səfər etdiyini deyən Yan Zahradil bildirdi ki, rəhbərlik etdiyi alyans Azərbaycanla uğurlu əməkdaşlıq həyata keçirir. Çexiya-Azərbaycan ikitərəfli münasibətlərinə toxunan qonaq bu münasibətlərin uğurla inkişaf etdiyini bildirdi, ölkələrimizin strateji tərəfdaşlıq səviyyəsində əməkdaşlığının önəmini vurğuladı. Yan Zahradil Avropa ilə Azərbaycan arasında əlaqələrin inkişafına töhfə verməsindən məmnunluğunu ifadə etdi.

Dövlətimizin başçısı Azərbaycan ilə Avropa Komissiyası arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək ölkəmizlə Avropa İttifaqına üzv olan 9 ölkə, o cümlədən Çexiya ilə strateji tərəfdaşlıq haqqında saziş və bəyannamələrin qəbul edilməsi və imzalanmasının önəmini vurğuladı. Prezident İlham Əliyev sabah Bakıda keçiriləcək tədbirin paytaxtımıza gələn çoxsaylı qonaqların Azərbaycanla daha yaxından tanış olması üçün yaxşı imkan yaradacağına əminliyini ifadə etdi.

**AZƏRTAC**

## Böyük Britaniya və Şimali İrlandiyanın Kraliçası Ülyahəzrət II Elizabetə

Ülyahəzrət,

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının milli bayramı - Təvəllüd Gününüz münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Krallığın dost xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 6 iyun 2018-ci il.**

## İ.İ.İsmayılovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə İmamverdi İbiş oğlu İsmayılov “Şöhrət” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 iyun 2018-ci il.**

## Qazax rayonunun Qazax-Uzuntala (9 km)-Cəfərli avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Qazax-Uzuntala (9 km)-Cəfərli avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,3 milyon (üç milyon üç yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 8 iyun 2018-ci il.**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Prezident seçkilərindəki qələbəniz münasibətilə Maldiv hökuməti və xalqı adından Sizi təbrik edirəm. Sizə Azərbaycanın inkişafı və tərəqqisinin, xalqınızın məqsəd və arzularının həyata keçirilməsini uğurla, müdrikliklə davam etdirməyi arzulayıram.

Maldiv və Azərbaycan ümumi dəyərlərə və ortaq maraqlara əsaslanan səmimi və uzunmüddətli münasibətlərə malikdir. Əminəm ki, ölkələrimiz arasında mövcud olan dostluq və əməkdaşlıq əlaqələri Sizin yeni səlahiyyətiniz müddətində xüsusilə beynəlxalq arenada daha da möhkəmlənəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, qardaş Azərbaycan xalqına davamlı sülh və firavanlıq arzularımı qəbul etməyinizi rica edirəm.

**Abdulla Yamin Abdul Qəyyum**
**Maldiv Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Həmçinin fürsətdən istifadə edərək, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə Sizə və xalqınıza təbriklərimi çatdırıram.

Əminəm ki, ölkələrimiz arasındakı gözəl münasibətlər xalqlarımızın mənafeyi və rifahı naminə gələcəkdə də inkişaf edəcək.

Ali dövləti vəzifənizin icrasında Sizə uğurlar arzulayıram.

*Hörmətlə,*

**Mark Rütte**
**Niderland Krallığının Baş naziri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Gürcüstan hökuməti və xalqı adından Sizi və dost Azərbaycan xalqını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Biz Gürcüstan və Azərbaycan Respublikası arasında möhkəm dostluğa, həmrəyliyə və qarşılıqlı hörmətə söykənən, regionda sülhə, sabitliyə və iqtisadi tərəqqiyə xidmət edən yüksək səviyyəli əlaqələrə böyük əhəmiyyət veririk. İnanıram ki, mövcud uğurlu əməkdaşlığımızın genişlənməsi üçün gələcəkdə də səylərimizi əsirgəməyəcəyik.

Zati-aliləri, fürsətdən istifadə edərək, bu əlamətdar gündə Sizə bir daha ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

**Giorgi Kvirikaşvili**
**Gürcüstanın Baş naziri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

İcazə verin, Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi səmimi qəlbdən təbrik edim, ölkənizə hərtərəfli inkişaf və rifah arzularımı çatdırım. Ölkəniz üçün böyük əhəmiyyəti olan bu yubiley - Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə Sizi təbrik etməkdən xüsusi məmnunluq duyuram.

2011-ci ildə Sizin Sloveniyaya rəsmi səfəriniz zamanı aparılan danışıqların ölkələrimiz arasında dostluq münasibətlərinin və tərəfdaşlığın daha da möhkəmlənməsinə təkan verdiyini böyük məmnuniyyətlə xatırlayırıq. Əminəm ki, Sloveniya və Azərbaycan dünyada sülhə, sabitliyə və anlaşmaya töhfə verməklə ikitərəfli əlaqələrini bundan sonra da genişləndirəcək və inkişaf etdirəcəklər.

Möhtərəm cənab Prezident, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

**Borut Pahor**
**Sloveniya Respublikasının Prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və xalqınıza şəxsən öz adımdan, həmçinin Malta xalqı adından səmimi təbriklərimi çatdırmaqdan şərəf duyuram.

2016-cı ildə Bakıya səfərimi və səfər çərçivəsində aparılmış konstruktiv müzakirələri xoş təəssüratlarla xatırlayıram. Ölkələrimiz arasında yüksək səviyyəli münasibətlərin mövcud olduğunu vurğulayır və bunu alqışlayıram. Ümid edirəm ki, xalqlarımızın mənafeyi naminə ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin daha da möhkəmləndirilməsi, həmçinin təhsil sahəsində yeni layihələrin həyata keçirilməsi üçün il ərzində imkanlar yaranacaqdır.

Fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı və ölkənizə daimi firavanlıq arzulayıram.

Zati-aliləri, Sizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Mari-Luiz Koleyro Preka**
**Malta Respublikasının Prezidenti**

## "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının "Rəşadət" ordeninin təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 884-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

Azərbaycan Respublikasının 2017-ci il 16 fevral tarixli 248-IIIQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 3, maddə 213; 2013, N 11, maddə 1245) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının "Şərəf" ordeninin statutu"nun 2-ci maddəsində "Azərbaycan bayrağı" sözləri "Rəşadət" sözü ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 1 may 2018-ci il.**

## "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununu "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, N 7, maddə 813; 2016, N 3, maddə 411, N 11, maddə 1756, N 12, maddə 2003; 2017, N 2, maddə 159, N 5, maddə 712, N 12, I kitab, maddə 2222) 7.4-cü maddəsinə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"İnvestisiya qiymətli kağızlarının reklamının xüsusiyyətləri "Reklam haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 4 may 2018-ci il.**

## "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1093-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 may tarixli 1093-VQD nömrəli Qanunun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının "Şərəf" və "Dostluq" ordenlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 31 may 2018-ci il.**

## "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1132-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 4 may tarixli 1132-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 31 may 2018-ci il.**

# Nazirlər Kabinetinin 2018-ci il üçün iş planında nəzərdə tutulmuş məsələlərə dair geniş iclas keçirilib

**İyunun 8-də Baş nazir Novruz Məmmədovun sədrliyi ilə "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı"nda nəzərdə tutulmuş məsələlərə dair geniş iclas keçirilib.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasın gündəliyinə Azərbaycan Respublikasının "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Paris Sazişi"ndən irəli gələn öhdəliklər və bu öhdəliklərin yerinə yetirilməsi üzrə aidiyyəti dövlət qurumlarının qarşısında duran vəzifələr haqqında, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının yeni qanununun layihəsi barədə və idxalı əvəz edən rəqabətqabiliyyətli məhsul istehsalının təşviqi və dəstəklənməsi ilə bağlı verilmiş təkliflərə dair məsələlər daxil edilib.

Müzakirəyə çıxarılan məsələlər üzrə aidiyyəti qurumların rəhbərlərinin məruzələri dinlənildikdən sonra hər üç mövzu ətrafında geniş fikir mübadiləsi aparılıb.

Sonda gündəlikdə duran məsələlərə dair müvafiq qərarlar qəbul edilib.

İclasa yekun vuran Baş nazir Novruz Məmmədov qarşıda duran vəzifələrin icrası ilə bağlı Nazirlər Kabinetinin müvafiq qurumlarına tapşırıqlar verib.

**AZƏRTAC**

# Mərhum energetika naziri Natiq Əliyevin xatirəsi anılıb

**Mərhum energetika naziri Natiq Əliyevin xatirəsi anılıb.**



Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, bu gün Azərbaycanın mərhum energetika naziri Natiq Əliyevin vəfatından bir il ötür. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin iqtisadi məsələlər üzrə köməkçisi Əli Əsədov, energetika naziri Pərviz Şahbazov, SOCAR-ın prezidenti Rövnəq Abdullayev, "Azərenerji" ASC-nin prezidenti Etibar Pirverdiyev, "Azərişıq" ASC-nin sədri Baba Rzayev, "Azəristiliktəchizat "ASC-nin sədri Yaşar Həsənov və digər şəxslər ikinci Fəxri xiyabanda mərhumun məzarı önünə əklil və güllər qoyaraq xatirəsini dərin ehtiramla yad ediblər.

Anım tədbirində tanınmış ictimai-siyasi xadim, mərhum energetika naziri, "Şöhrət" ordenli, əməkdar mühəndis Natiq Əliyevin ölkəmizin neft-qaz sənayesindəki fəaliyyəti, müstəqil Azərbaycanın enerji tarixindəki xidmətlərindən bəhs edilib. Bildirilib ki, müstəqillik illərində həyata keçirilən irimiqyaslı enerji layihələrinin hər birində Natiq Əliyevin mühüm rolu olub. 1994-cü ildə transmilli şirkətlərlə imzalanmış "Əsrin müqaviləsi" ilə başlanan yeni neft strategiyasının, ölkənin enerji təhlükəsizliyinin təmin olunmasına yönəlmiş dövlət proqramları və inkişaf konsepsiyalarının hazırlanıb həyata keçirilməsində, neft-qaz sazişlərinin imzalanmasında, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi qlobal layihələrin reallığa çevrilməsində Natiq Əliyevin xidmətləri yüksək qiymətləndirilib. Onun Cənub Qaz Dəhlizi üzrə əməkdaşlıq münasibətlərinin qurulması və layihənin yerinə yetirilməsi işinə töhfələri qeyd olunub.

Natiq Əliyevin tədqiqatçı-alim və beynəlxalq enerji siyasəti sahəsində mütəxəssis kimi fəaliyyətinə dair fikirlər söylənilib. Bildirilib ki, bacarıqlı təşkilatçı və təvazökar insan N.Əliyevin xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.

**AZƏRTAC**

# Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı gələcək fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb

**İyunun 8-də Baş nazirin müavini Əli Həsənov Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Elena Aymone Sessera ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini Əli Həsənova cəbhə xəttinə yaxın ərazilərdə təşkilat tərəfindən həyata keçirilən humanitar layihələr barədə ətraflı məlumat verən Elena Aymone Sessera yaradılan münbit şəraitə görə ölkə rəhbərliyinə təşəkkürünü bildirib və həmin layihələrin davamlı olacağını diqqətə çatdırıb.

Baş nazirin müavini humanitar missiyasının icrasında beynəlxalq təşkilata bundan sonra da lazımi dəstək veriləcəyini qeyd edib. Daha sonra Əli Həsənov işğal altında olan Kəlbəcər rayonu ərazisində doğmalarının məzarını ziyarət etmək məqsədi ilə əzəli torpaqlarına səfər zamanı Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülən Dilqəm Əsgərov və Şahbaz Quliyevin vəziyyətləri ilə bağlı narahatlığını ifadə edib. O, BQXK-nın bu məsələnin həlli istiqamətində səylərinin artırılmasının vacibliyini vurğulayıb.

Görüşdə beynəlxalq humanitar təşkilatın ölkəmizdə gələcək fəaliyyəti barədə geniş fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycanın müdafiə naziri NATO-nun toplantısında iştirak edib

**Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov iyunun 8-də Brüsseldə NATO-nun Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasına töhfə verən dövlətlərin müdafiə nazirləri səviyyəsində keçirilən toplantıda iştirak edib.**




Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Əfqanıstandakı təhlükəsizlik və siyasi vəziyyət, missiyanın gələcəyi, təhlükəsizlik qüvvələrinin saxlanılması üçün tələb olunan maliyyə öhdəçiliyinin 2020-ci ildən sonra da davam etdirilməsi və digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

General-polkovnik Zakir Həsənov iclasda çıxış edərək Azərbaycanın Əfqanıstana göstərdiyi dəstək barədə ətraflı məlumat verib. Müdafiə naziri Əfqanıstanda sülhün və sabitliyin bərqərar olunması üçün beynəlxalq ictimaiyyətin səylərinin Azərbaycan tərəfindən bundan sonra da dəstəklənəcəyini bildirib.

Qeyd edək ki, Azərbaycan Respublikasının 120 nəfərlik sülhməramlı kontingenti Əfqanıstandakı "Qətiyyətli dəstək" missiyasında iştirak edir. Eyni zamanda, Azərbaycan Respublikası NATO missiyasına multimodal tranzit, təlim və Əfqan Milli Ordusu üzrə Etimad Fonduna maliyyə dəstəyi ilə də töhfə verir.

**AZƏRTAC**

# Gənclər və idman naziri Qubada şimal bölgəsindən olan vətəndaşları qəbul edib

**Gənclər və idman naziri Azad Rəhimov iyunun 8-də Qubada şimal bölgəsindən olan vətəndaşların müraciətlərini dinləyib.**



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Quba, Qusar, Siyəzən, Şabran və Xaçmaz rayonlarından olan 20-dən artıq vətəndaş iştirak edib.

Qəbulda müxtəlif sahələrə dair müraciətlər əksini tapıb.

Gənclər sahəsinə aid müraciətlər əsasən, qeyri-hökumət gənclər təşkilatlarının yaradılması, müxtəlif layihələrin maliyyələşdirilməsi və onlara dəstək göstərilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, istirahət düşərgələrinin təşkili, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təminatı və fəaliyyəti ilə bağlı məsələlərə aid olub.

İdman sahəsi üzrə isə müraciətlər arasında fəxri adların verilməsi, idman mərkəzlərinin idman avadanlıqları ilə təmin olunması, Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və təmiri, Uşaq Gənclər və İdman mərkəzlərinin (UGİM) və bölmələrinin yaradılması, idmançıların beynəlxalq yarışlarda iştirakı və s. mövzular üstünlük təşkil edib.

Qəbulda bir sıra müraciətlər yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

**AZƏRTAC**

# Xarici İşlər Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi birgə bəyanat yayıblar

**Xarici İşlər Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Azərbaycan nümayəndəsinin BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinə (CEDA) üzv seçilməsinə dair bəyanat yayıblar.**

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatda deyilir: "İyunun 7-də Nyu-York şəhərində BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiyaya tərəf dövlətlərin 20-ci iclası zamanı BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinin üzvlüyünə seçkilər keçirilib.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin apardığı təbliğat-təşviqat fəaliyyəti nəticəsində Azərbaycanın namizədi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsi 143 dövlətin səsini əldə edərək 2019-2022-ci illər üzrə Komitəyə üzv seçilib.

Komitədə mövcud olan 12 vakant yerə 16 dövlətin nümayəndəsinin namizədliyi irəli sürülmüşdü (Azərbaycan, Peru, Yaponiya, Səudiyyə Ərəbistanı, Bəhreyn, Əlcəzair, Monteneqro, Misir, Gürcüstan, Mavriki Respublikası, İspaniya, Trinidad və Tobaqo, Bolqarıstan, Toqo, Əfqanıstan və Burkina Faso).

Seçilmək üçün Konvensiyaya üzv dövlətlərin ən azı üçdə ikisinin, yəni, 126 dövlətin səsi tələb olunduğu halda Azərbaycan Respublikasının namizədinə 143 dövlət səs verib.

Komitənin üzvləri qadın hüquqları sahəsində ixtisaslaşan və Konvensiyanın tərəf dövlətləri tərəfindən gizli səsvermə yolu ilə 4 illik müddətə seçilən 23 müstəqil ekspertdən ibarətdir.

Azərbaycan Respublikasının namizədini dəstəkləyən bütün üzv dövlətlərə təşəkkürümüzü ifadə edirik. Azərbaycan Respublikasının namizədinin böyük səs çoxluğu ilə sözügedən komitəyə seçilməsi üzv dövlətlər tərəfindən ölkəmizə olan yüksək etimadın göstəricisidir.

Komitəyə Azərbaycanla bərabər nümayəndələri seçilmiş Peru, Yaponiya, Səudiyyə Ərəbistanı, Əlcəzair, Misir, Gürcüstan, Mavriki Respublikası, İspaniya, Trinidad və Tobaqo, Bolqarıstan və Burkina Fasonu təbrik edirik.

BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsi Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması üzrə Konvensiyanın yerinə yetirilməsi vəziyyətinin monitorinqini həyata keçirir".

**AZƏRTAC**

# Azərbaycan Milli Elmlər Akademiyasının ümumi yığıncağı keçirilib

**İyunun 8-də Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) illik ümumi yığıncağı keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev, Baş nazirin müavini Əli Əhmədov, Prezident Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, müxtəlif dövlət və hökumət qurumlarının, ali təhsil müəssisələrinin rəhbərləri, AMEA-nın həqiqi və müxbir üzvləri, akademiyanın institut və təşkilatlarının direktorları, KİV nümayəndələri iştirak ediblər.





AMEA-nın prezidenti akademik Akif Əlizadə ümumi yığıncağı açaraq iştirakçıları gündəlikdəki məsələlərlə tanış edib.

Tədbirdə Azərbaycan elminin inkişafında xüsusi xidmətləri olan görkəmli alimlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Sonra akademik A.Əlizadə AMEA-nın beşillik fəaliyyətinə dair məruzə ilə çıxış edib.

AMEA-nın rəhbəri akademiyanın Rəyasət Heyətinin 2013-cü ildə seçilmiş tərkibinin beşillik fəaliyyət müddətinin başa çatdığını, bu dövrdə prioritet istiqamətlər üzrə bir sıra nailiyyətlər qazanıldığını bildirərək deyib: "Bu gün akademiya elmi problemlərin həlli ilə yanaşı, respublikamızın ictimai və iqtisadi inkişafında, strateji yol xəritələrinin həyata keçirilməsində yaxından iştirak edir".

Akademiyanın prezidenti "Web of Science", "Scopus", "Google" bazaları üzrə yüksək statistik göstəricilər əldə edildiyini, tətbiqi tədqiqatların səmərəliliyinin əhəmiyyətli dərəcədə artırıldığını, elm və təhsilin inteqrasiyası, elektron elmin formalaşması istiqamətlərində mühüm addımların atıldığını, beynəlxalq elmi əlaqələrin genişləndiyini deyib.

Akif Əlizadə AMEA-da həyata keçirilən sosial proqramlardan, elmin populyarlaşdırılması istiqamətində fəaliyyətdən, hüquqi islahatlardan, ictimaiyyətlə əlaqələrin qurulmasında əldə edilən uğurlardan da söz açıb.

Akademik müasir dünyanın çağırışlarının, ölkəmizin inkişaf prioritetlərinin Azərbaycan elmi qarşısında yeni-yeni vəzifələr müəyyənləşdirdiyini vurğulayaraq deyib: "Azərbaycan alimləri kiber-fiziki sistemlər, molekulyar biologiya, molekulyar genetika, bioinformatika, texnologiyaların həyat proseslərinə kompleks tətbiqi, yaşıl təfəkkür, koqnitiv psixologiya, psixofizika, süni intellekt, neyrobiologiya, neyrofiziologiya və başqa elm sahələrində ən müasir tədqiqatların müəllifləri olmalıdırlar. Biz Azərbaycan alimləri bütün qüvvələrimizi səfərbər edərək bu məqsədə doğru inamla addımlamalıyıq".

Akademiyanın prezidenti son beş ildə tətbiqi tədqiqatların səmərəliliyinin mühüm dərəcədə artdığını bildirib. Beş il əvvəl AMEA-da elm və istehsalat arasında əlaqələrin genişləndirilməsinin əsas prioritetlərdən biri kimi qəbul olunduğunu vurğulayan akademik qeyd edib ki, bu istiqamətdə ən mühüm uğurlardan biri Prezident İlham Əliyevin Sərəncamı ilə təcrübə-sənaye zavodunun bazasında Yüksək Texnologiyalar Parkının yaradılmasıdır. Akademik dövlət başçısının bu Sərəncamının AMEA-nın elmi-texniki siyasətində köklü dəyişikliklərə səbəb olduğunu söyləyərək deyib: "AMEA-nın tarixində ilk dəfə olaraq müxtəlif kiçik tədqiqat biznesinin infrastrukturları yaradılıb. Yeni yağ növlərinin, məsafədən idarə edilən yerüstü, hava və sualtı robotlaşdırılmış qurğuların - dronların, müdafiə təyinatlı avadanlığın, kompüter stendlərinin, filiz və qeyri-filiz xammalın çıxarılması və işlənilməsinin, dərman və kosmetik məhsulların istehsalının yeni texnologiyalarının bazara çıxarılması reallaşıb".

Akademik A.Əlizadə bildirib ki, hesabatın mətni təkliflərini bildirmək üçün əvvəlcədən əməkdaşlara paylanılıb.

Sonra AMEA-nın akademik-katibi Rasim Əliquliyev Akademiya Rəyasət Heyətinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinə dair sualları cavablandırıb.

Tədbirdə çıxış edən təhsil naziri Ceyhun Bayramov bildirib ki, Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən inkişaf strategiyasının əsas prioritetlərindən biri bilik iqtisadiyyatının formalaşdırılması, təhsil, elm və innovasiya arasında səmərəli əlaqənin yaradılmasıdır. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda ali təhsil müəssisələrində "təhsil-tədqiqat-innovasiya" formatında inkişafın təşviqi əsas hədəflərdən biri kimi nəzərdə tutulub ki, bu da elmi fəaliyyətin nəticələrinin kommersiyalaşdırılmasına diqqətin artırılmasını zəruri edib.

Nazir qeyd edib ki, elmi fəaliyyətin stimullaşdırılması ilə bağlı həyata keçirilən tədbirlər, eyni zamanda, dünyanın tanınmış elmi-analitik informasiya təminatçısı olan "Clarivate Analytics" ("Thomson Reuters") şirkəti ilə 2015-ci ildən başlanan uğurlu əməkdaşlıq öz müsbət nəticələrini verməkdədir. Belə ki, qlobal elmi bazadan istifadə aktivliyinin dinamikasında 2017-ci ildə, əvvəlki illə müqayisədə 75 faiz artım müşahidə olunub, impakt faktorlu jurnallarda çap olunmuş məqalələrin sayında da son dörd ildə 68 faiz artım qeydə alınıb. Nəşr aktivliyinin son üç ildə artım dinamikasına görə Azərbaycan regionda birinci yerə çıxıb. 2017-ci ildə nəşrlərin sayı üzrə ən yüksək göstərici qeydə alınıb. İlkin təhlillərə əsasən 1118 elmi tədqiqat işinin təxminən 43 faizi ali təhsil müəssisələrinin payına düşür.

C.Bayramov Təhsil Nazirliyinə tabe olan ali təhsil müəssisələrində çalışan alimlər tərəfindən hər il 200-dən çox monoqrafiya, 800-dən artıq dərslik və dərs vəsaiti, 10 mindən çox elmi məqalə və məruzə nəşr olunduğunu diqqətə çatdırıb.

Kənd təsərrüfatı naziri İnam Kərimov qeyd edib ki, aqrar sahədə elmi tədqiqatların prioritetlərinin müəyyənləşdirilməsi və nəticəyönümlülüyünün artırılması məqsədilə qabaqcıl təsərrüfatların, peşəkar təşkilatların, universitet nümayəndələrinin və müstəqil ekspertlərin iştirakı ilə Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi yanında Koordinasiya Şurası yaradılıb. Elmi-tədqiqat işlərinin stimullaşdırılması məqsədilə Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu ilə Əməkdaşlıq Protokolu imzalayıb və bir sıra özəl şirkətlərlə əlaqələr qurub. Bu sahədə əldə edilən elmi nailiyyətlərin həmin təşkilatların təsərrüfatlarında tətbiqi ilə bağlı razılıqlar əldə edilib.



Nazir diqqətə çatdırıb ki, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi və onun strukturuna daxil olan elmi-tədqiqat institutları ilə AMEA-nın müvafiq sahə institutları arasında əlaqələrin günün tələbləri səviyyəsinə qaldırılması aktuallıq kəsb edir. Hazırda AMEA-nın Yüksək Texnologiyalar Parkı ilə Aqrar Elm və İnformasiya Məsləhət Mərkəzi arasında tərəfdaşlıq əlaqələrinin yaradılmasına, innovativ texnologiyaların təsərrüfatlara transformasiyası istiqamətində birgə tədbirlərin həyata keçirilməsinə ehtiyac var. Həmçinin biotexnologiya, alternativ enerji resurslarından istifadə, məhdud torpaq və su resurslarına qənaət sahəsində birgə araşdırmaların aparılması böyük əhəmiyyət daşıyır.

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə bildirib ki, inkişaf strategiyasında elm və texnologiyalar mühüm yer tutur. Bu baxımdan qarşıda duran vəzifələrdən biri elmə, yüksək texnologiyalara əsaslanan istehsalın genişləndirilməsidir. Ölkəmizdə bu istiqamətdə ciddi addımlar atılır. Texnoloji parklar, sənaye zonaları, biznes inkubatorlar yaradılır və innovativ ideyaların dəstəklənməsi üçün imkanlar genişləndirilir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində fəaliyyət göstərən Pirallahı və Mingəçevir yüksək texnologiyalar parkları, İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondu, Yüksək Texnologiyalar və Milli Nüvə Tədqiqatları mərkəzləri bu məqsədlərə xidmət edir. Müasir avadanlıqla təchiz edilmiş Yüksək Texnologiyalar Mərkəzində alimlərimiz Xəzər neftindən istifadə etməklə nanoborular hazırlayıblar. Yeni nəsil LED lampaların hazırlanması istiqamətində də uğurlu nəticələr var və artıq sınaqlar həyata keçirilir.

Cari və perspektiv məsələlərin həllində Azərbaycan elminin mövcud potensialından səmərəli istifadə etmək üçün alimlərlə əməkdaşlıqdan danışan nazir deyib ki, regionun ən təhlükəsiz və müasir standartlara cavab verən Data Mərkəzi ölkəmizdə qurulub. Data Mərkəzi beynəlxalq səviyyədə qəbul edilən TİER III yüksək təhlükəsizlik sertifikatı alıb, bu sahədə dünyanın ən aparıcı şirkətlərinin avadanlığı ilə təchiz olunub. 2017-ci ildən Data Mərkəzi tərəfindən dövlət qurumlarına, fiziki və hüquqi şəxslərə data və bulud texnologiyaları xidmətləri göstərilir. DATA Mərkəzi biznes və dövlət qurumları ilə yanaşı, elmi ictimaiyyətin də fəaliyyət dairəsinə uyğun xidmət göstərməyə hazırdır.

"Nazirlik Azərbaycan Milli Elmlər Akademiyasının rəhbərliyi və onun müvafiq institutları ilə sıx əməkdaşlıq edir. İnanırıq ki, bizim birgə əməkdaşlığımız ölkəmizin sosial-iqtisadi, eləcə də elmi-texnoloji inkişafına önəmli töhfə verəcək", - deyə Ramin Quluzadə bildirib.

Daha sonra AMEA İdarəetmə Sistemləri İnstitutunun şöbə müdiri, akademik Asəf Hacıyev, Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri akademik Teymur Bünyadov, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun direktoru, akademik İradə Hüseynova çıxış ediblər.

Tədbirdə ümumi yığıncağın qərar layihəsi müzakirə olunub. AMEA-nın Rəyasət Heyətinin 2017-ci ildəki fəaliyyəti qənaətbəxş hesab edilib və hesabat təsdiqlənib.

Qərarda "Elm haqqında" Azərbaycan Respublikasının Qanununda əks olunmuş elmi-nəzəri, praktik və innovativ istiqamətlərdə vəzifələrin reallaşdırılması üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müvafiq tədbirlərin həyata keçirilməsi, beynəlxalq elmi əlaqələrin, eləcə də yüksək texnoloji bizneslə əməkdaşlığın genişləndirilməsi, AMEA-da magistrant və doktorant hazırlığının dünya elminə inteqrasiya olunan, ölkədə bilik iqtisadiyyatını inkişaf etdirən perspektiv elmi istiqamətlər üzrə aparılması və digər məsələlərlə bağlı müddəalar yer alır.

Sonra ümumi yığıncaqda "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" və AMEA-nın görkəmli alimlərin adlarını daşıyan mükafatları təqdim olunub.

Dəniz neft və qaz-kondensat yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsinin aktual problemlərinə həsr edilmiş fundamental elmi tədqiqatlarına, Xəzər dənizində neft və qaz yataqlarının kəşf olunması və Azərbaycanda neft sənayesinin inkişafındakı əvəzsiz xidmətlərinə görə AMEA-nın həqiqi üzvü Xoşbəxt Yusifzadə və müasir plazma fizikasının yaradılmasına verdiyi fundamental elmi töhfələrinə, beynəlxalq kooperasiyalı kosmik texnologiyaların yüksək elmi nəticələrinə və Azərbaycanda kosmik texnologiyaların inkişafındakı böyük xidmətlərinə görə Rusiya Elmlər Akademiyasının həqiqi üzvü Roald Saqdeyev "Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı" ilə təltif ediliblər.

Yarımkeçiricilərdə elektrikkeçirmə mexanizminin aktual problemlərinə həsr olunmuş fundamental elmi tədqiqatlarına, nadir torpaq elementləri ilə aktivləşdirilmiş birləşmələr əsasında effektiv rəngli lümenessent şüalanma mənbələrinin tədqiqinə verdiyi mühüm töhfələrə görə akademik Bahadur Tağıyev AMEA-nın Nəsirəddin Tusi adına, biomüxtəliflik üzrə müasir elm sahələrində uzunmüddətli silsilə tədqiqatlarla əldə etdiyi mühüm elmi nailiyyətlərə və yüksəkixtisaslı kadrların hazırlanmasındakı xidmətlərinə görə AMEA-nın müxbir üzvü Zeynal Əkpərov AMEA-nın Həsən bəy Zərdabi adına mükafatlarına layiq görülüblər.

Qeyri-kovalent əlaqələrin, "dopinq" və "spayder" effektlərinin zərif üzvi sintez reaksiyalarında və molekulların dizaynında rolunun müəyyən edilməsində, aktiv nanoquruluşların sintezi, müxtəlif mühitlərdə sabitləşdirilməsi və tətbiqi sahəsində tədqiqatlara görə akademik Abel Məhərrəmova, AMEA-nın akademik Yusif Məmmədəliyev adına, "Dünya palçıq vulkanları atlası" (Azərbaycan, rus və ingilis dillərində) adlı fundamental elmi əsərinə, eləcə də nadir təbiət hadisəsi olan palçıq vulkanlarının geologiyasının, geotektonikasının, geokimyasının və mineralogiyasının öyrənilməsi sahəsində çoxillik elmi fəaliyyətinə görə geologiya-mineralogiya üzrə elmlər doktoru Adil Əliyevə, AMEA-nın akademik Musa Əliyev adına, Azərbaycan və Yaxın Şərqin erkən orta əsrlər tarixinin mənbəşünaslıq, regionun sosial-iqtisadi, siyasi-mədəni problemlərinin və tarixi coğrafiyasının tədqiqi, təhlili və təbliğinə görə akademik Nailə Vəlixanlıya AMEA-nın Abbasqulu ağa Bakıxanov adına mükafatları verilib.

AMEA-nın akademik Üzeyir Hacıbəyli adına mükafatına isə orijinal üslubu və elmi əsaslı təkraredilməz yaradıcılığı ilə müasir Azərbaycan rəngkarlıq məktəbini dünya səviyyəsində tanıtdığına görə Xalq Rəssamı Tahir Salahov layiq görülüb.

Daha sonra ümumi yığıncaqda AMEA-nın prezidenti vəzifəsinə və AMEA-nın Rəyasət Heyətinin üzvlüyünə seçkilər keçirilib.

Səsvermədə AMEA-nın həqiqi üzvləri iştirak ediblər. Akademik Akif Əlizadə 66 həqiqi üzvün səsini əldə edərək növbəti beş il müddətinə yenidən AMEA-nın prezidenti seçilib.

Akademiklər Nərgiz Paşayeva və İradə Hüseynova AMEA-nın yeni vitse-prezidentləri seçiliblər.

Seçkinin nəticələrinə görə, akademiklər İsa Həbibbəyli, İbrahim Quliyev, Tofiq Nağıyev və Dilqəm Tağıyev yenidən AMEA-nın vitse-prezidentləri, AMEA-nın müxbir üzvü Bilal Bilalov Rəyasət Heyətinin üzvü vəzifəsini icra edən seçiliblər. Bundan başqa, səsvermə nəticəsində akademik Rasim Əliquliyev AMEA-nın akademik-katibi, akademiklər Əhliman Əmiraslanov Biologiya və Tibb Elmləri Bölməsinin, Nazim Məmmədov Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin, Fəxrəddin Qədirov Yer Elmləri Bölməsinin, Dilqəm Tağıyev Kimya Elmləri Bölməsinin, Nərgiz Axundova İctimai Elmlər Bölməsinin, Teymur Kərimli Humanitar Elmlər Bölməsinin, İsmayıl Hacıyev Naxçıvan Bölməsinin, Fuad Əliyev isə Gəncə Bölməsinin akademik-katibləri seçiliblər.

Bununla da, AMEA-nın ümumi yığıncağı başa çatıb.

**AZƏRTAC**

# Rusiyanın ölkəmizə yeni təyin olunmuş səfiri etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinə təqdim edib

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Rusiyanın ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə səfir Mixail Boçarnikov etimadnaməsinin surətini nazir Elmar Məmmədyarova təqdim edib.



Nazir Elmar Məmmədyarov səfiri təyinatı münasibətilə təbrik edib və ona diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Səfir Mixail Boçarnikov Azərbaycana təyin olunmasından şad olduğunu və fəaliyyəti dövründə iki ölkə arasında ənənəvi dostluq münasibətlərinin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib.

Görüşdə Azərbaycan və Rusiya arasında əlaqələrin strateji tərəfdaşlıq müstəvisində mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma şəraitində inkişafından məmnunluq ifadə olunub. Siyasi, iqtisadi-ticarət, mədəni-humanitar və digər sahələrdə əməkdaşlıq perspektivləri nəzərdən keçirilib. İkitərəfli əlaqələrin inkişafında regionlararası əməkdaşlığın xüsusi rol oynadığı qeyd olunub.

Söhbət əsnasında, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xəzər dənizinin hüquqi statusu və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Azərbaycan-Qambiya əməkdaşlığının müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə edilib

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Qambiyanın xarici işlər naziri Ousainu Darboenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ölkəmizdə olmasından məmnunluğunu bildirən qambiyalı nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul olunduğunu və görüş zamanı çox faydalı müzakirələrin aparıldığını qeyd edib.

Söhbət zamanı Azərbaycan və Qambiya arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivləri müzakirə edilib. BMT, İƏT və digər beynəlxalq təşkilatlar çərçivəsində iki ölkənin sıx əməkdaşlıq etdiyini bildirən nazirlər ikitərəfli əlaqələrin inkişafında müqavilə-hüquq bazasının genişləndirilməsinin və qarşılıqlı səfər mübadilələrinin həyata keçirilməsinin vacibliyini vurğulayıblar.

Habelə nazirlər turizm, təhsil, səhiyyə və digər sahələrdə əməkdaşlıq üçün geniş potensialın mövcud olduğunu bildiriblər. Bu xüsusda qambiyalı tələbələrin Azərbaycanın ali məktəblərində təhsil almaları və ixtisaslarının artırılması imkanları müzakirə edilib.

Nazir Elmar Məmmədyarov ADA Universiteti haqqında danışaraq Azərbaycan tərəfindən İƏT və Qoşulmama Hərəkatı üzv dövlətlərindən olan tələbələr üçün təhsil təqaüdlərinin ayrılması barədə məlumat verib.

Nazir Elmar Məmmədyarov ölkəmizin "Ekspo 2025"ə ev sahibliyi etmək üçün müraciət etməsi barədə həmkarına məlumat verib.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan son danışıqlar prosesi barədə həmsöhbətini məlumatlandıran nazir Elmar Məmmədyarov Qambiyanın münaqişənin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinə dair ədalətli mövqeyinin yüksək qiymətləndirildiyini bildirib.

Qambiyalı nazir Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı ilə bağlı ölkəsinin beynəlxalq təşkilatlar çərçivəsində hər zaman qəti dəstək göstərdiyini diqqətə çatdırıb.

**AZƏRTAC**

## 15 iyun Milli Qurtuluş Günüdür

# Xilaskarlıq missiyası

**Ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyev bütün mənalı ömrünü xalqına, vətəninə xidmət göstərməyə sərf etmişdir. 1993-cü ilin 15 iyunu müasir tariximizə Milli Qurtuluş Günü kimi yazılıb. İllər keçəcək və gələcək nəsillər bu günümüzü, şanlı dövlətçilik tarixini vərəqləyəcək, Azərbaycana rəhbərlik etmiş təcrübəli dövlət xadimi, müasir siyasətçi Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı, Azərbaycan xalqı və onun dövlətçiliyi üçün nə qədər yüksək işlər gördüyünü bir daha təsdiqləyəcəkdir.**

1993-cü ilin yayında Azərbaycan "olum, ya ölüm" dilemması qarşısında qalmışdı. Belə bir çətin məqamda xalqımız son ümid yeri kimi öz dahi oğlu Heydər Əliyevə üz tutdu. Ulu öndər Heydər Əliyev 1993-cü ilin iyununda hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilən milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən birinə çevrilmişdir. Xalqımızın yaddaşında bütöv və milli şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev dühasının tarixi sınaq anında üzərinə düşən missiyanın öhdəsindən uğurla gəlməsi, sözün həqiqi mənasında, Milli Qurtuluşa nail olması onun xalqla mənəvi birliyinin nəticəsi sayılmalıdır. Dövlətçiliyin taleyi baxımından ən ağrılı və çətin günlərdə xalq öz gələcəyini məhz inandığı, müdrikliyinə, idarəçilik səriştəsinə, siyasi fəhminə qəlbən güvəndiyi liderə — Heydər Əliyevə etibar etmiş, onun rəhbərliyi altında üzləşdiyi fəlakətlərdən xilas olacağına böyük ümid bəsləmişdi.

Ümummilli lider ölkəmizi parçalanıb məhv olmaqdan qurtardı, müstəqilliyimizi dönməz etdi. Qurtuluş tariximizin başlanğıcını qoyan ulu öndərimiz Azərbaycanı bütün təhlükələrdən xilas etdi. Xalqın istək və arzularını, onun dövlətçilik ənənələrini, milli maraq və mənafelərini müstəqillik ideyası əsasında birləşdirdi, hadisələrin axarını dəyişdi.

Ümummilli liderin qısa müddətdə vətəndaş sülhü və həmrəyliyinə, milli barışa nail olması, paralel olaraq respublikada tənəzzül prosesini dayandıraraq iqtisadi dirçəliş yönümündə praktik addımlar atması da xalqın öz rəhbərinə olan dəstəyindən irəli gəlirdi.

Xalqına, dövlətinə güvənən Heydər Əliyev dühası 1994-1995-ci illərdə bəzi daxili qüvvələrin dövlət çevrilişi, qiyam cəhdlərinin qarşısını qətiyyətlə almış, beləliklə, Azərbaycanda silahlı yolla hakimiyyəti ələ keçirmək cəhdlərinə son qoyulmuşdur. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart hadisələri zamanı ümummilli liderin bir çağırışı ilə yüz minlərlə həmvətənlərimizin Prezident Aparatının qarşısına toplanması, ona dəstək verməsi çağdaş tariximizə milli birlik və həmrəyliyimizin ən ali təcəssümü kimi iz salmışdır.

Heydər Əliyev qədər Azərbaycanın neft sənayesini dərindən bilən ikinci bir rəhbər tapmaq çətindir. 1994-cü ildə respublikamız yeni bir eraya - neftimizin dünya bazarına nəqli erasına qədəm qoydu. Heydər Əliyev xarici iş adamları, xarici şirkətlərlə iş qurmaqla milli neft strategiyasının əsasını qoydu. Azərbaycan tarixində xüsusi əhəmiyyət kəsb edən Xəzərin neft-qazla zəngin strukturlarının işlənilməsinə dair möhtəşəm bir müqavilə imzalandı.

Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" və "İpək yolu" kimi nəhəng layihələrin reallaşdırılması bütün dünyada maraqla izləndi. Azərbaycan xarici investisiya qoyuluşuna görə MDB məkanında birinci yeri tutdu. Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişi dünya miqyasında mühüm hadisə kimi qiymətləndirildi.

Ulu öndərin müəllifliyi ilə hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş ilk Milli Konstitusiya Azərbaycanın unitar, demokratik və dünyəvi dövlət imicini təsbit etmiş, vətəndaş cəmiyyətinə, insan hüquq və azadlıqlarının prioritetliyinə əsaslanan islahatların əsasına çevrilmişdir.

Ümummilli lider Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi dövlətçilik fəlsəfəsi milli dövlətçiliyimizin bünövrəsini təşkil edərək dünya azərbaycanlılarının həmrəyliyi üçün ideoloji zəmin yaratmışdır. Diaspor və lobbi quruculuğuna göstərilən xüsusi diqqət Heydər Əliyevin yüksək diplomatik və peşəkar siyasətçi keyfiyyətlərindən qaynaqlanırdı. Ulu öndərin təşəbbüsü ilə 2001-ci ildə Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmiş, dünya azərbaycanlılarının bir bayraq altında birləşməsi mühüm vəzifə kimi qarşıya qoyulmuşdur.

Milli tariximizin Heydər Əliyev dövrü şərəfli mərhələdir. Ümummilli liderimizin siyasi məharəti, zəngin dövlətçilik təcrübəsi, qətiyyəti və uzaqgörənliyi sayəsində ölkəmiz ən böyük çətinlikləri, dövlətçiliyimizin itirilməsinə səbəb ola biləcək bütün problemləri aradan qaldırdı. Ulu öndərin şərəfli xilaskarlıq missiyası nəticəsində məhv olmaq təhlükəsindən qurtaran Azərbaycan gələcəyə inamla addımlayan qüdrətli dövlətə çevrildi.

Tale ona fenomenal qabiliyyət bəxş etmişdi. Ümummilli lider Heydər Əliyevin həyatı boyu reallaşdırdığı layihələr xalqın gələcəyinə hesablanmışdı və zaman göstərdi ki, bunlar əfsanə yox, bir həqiqətdir.

Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın ulu öndərimiz Heydər Əliyev haqqında dediyi bu sözlər yerində deyilib: *"Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən lider idi. Türkiyə-Azərbaycan dostluğunu çox gözəl ifadə edən "Bir millət, iki dövlət" ifadəsi də ona məxsusdur. Biz çalışmalıyıq ki, bu hikmətanə deyimin ifadə etdiyi amal bundan sonra da davam etsin...".*



Bu gün ulu öndərimiz Heydər Əliyevin ideyaları Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçısı İlham Əliyevin milli maraqlarımızın qorunmasında, əhalinin rifahının yaxşılaşdırılmasında nümayiş etdirdiyi qəti və prinsipial mövqe, insanlara qayğı göstərilməsinin bütün dövlət strukturlarının qarşısında ali məqsəd kimi qoyulması Heydər Əliyev siyasi kursunun bu gün də layiqincə davam etdirildiyinə əsaslı sübutdur. Bu gün Azərbaycan bütün sahələrdə böyük uğurlara imza atır.

**Həbib HƏSƏNOV,**
**Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin rəisi.**

# Heydər Əliyev dünya azərbaycanlılarını vahid ideya ətrafında birləşdirdi

**1993-cü ilin iyun ayında tarixi zərurət və xalqın təkidli tələbi ilə ümummilli lider, dahi şəxsiyyət Heydər Əliyev yenidən Azərbaycan respublikasına rəhbərliyə qayıtdıqdan sonra ölkənin ictimai həyatının bütün sahələrində, o cümlədən dünya azərbaycanlıları ilə əməkdaşlıq istiqamətində keyfiyyət və mahiyyətcə yeni mərhələ başlandı.**

Müstəqil Azərbaycan Respublikasının qurucusu, ulu öndər Heydər Əliyev çoxşaxəli fəaliyyətində daha bir tarixi missiyanı - dünya azərbaycanlılarının milli birliyinin ideoloqu, təbliğatçısı və təşkilatçısı olmaq missiyasını öz üzərinə götürmüş və böyük uğurla həyata keçirmişdir. Onun müdrik siyasəti nəticəsində 1993-cü ildən başlayaraq dünya azərbaycanlıları ilə iş dövlət əhəmiyyətli strateji məsələyə çevrildi. Bu mühüm işin konsepsiyası - dünya azərbaycanlılarının xalqımızın ayrılmaz hissəsi kimi qəbul edilməsi, Azərbaycan Respublikasının bütün azərbaycanlıların Vətəni sayılması, həmvətənlərimizin əqidə və əməl birliyi zəminində elmi şəkildə formalaşması, lobbiçilik perspektivi, azərbaycançılıq ideyasının dövlət siyasəti səviyyəsinə qaldırılması da məhz Heydər Əliyev tərəfindən irəli sürülmüşdür.

Ümummilli liderin xarici səfərlərinin proqramına soydaşlarımızla görüşlərin daxil edilməsi, diaspor quruculuğu sahəsində mühüm qərarların qəbulu və onların icrası dünya azərbaycanlılarının mütəşəkkilliyini, siyasi-mənəvi inteqrasiyasını, ən nəhayət, təşkilatlanmasını sürətləndirmişdir. Heydər Əliyevin uğurlu daxili və xarici siyasətinin doğurduğu reallıqlar Azərbaycan diasporunun formalaşması prosesinə əlavə təkan vermişdir.

Gərgin əmək, dözüm və qətiyyət, daxildən doğan məsuliyyət, zəngin təcrübə və müdriklik, siyasi məharət ikinci dəfə hakimiyyətə gəldikdən sonra ulu öndərə ölkədəki hərc-mərcliyi aradan qaldırmağa, vətəndaş birliyini və sabitliyi bərqərar etməyə, müstəqil dövlət quruculuğunu həyata keçirməyə imkan vermişdir. Azərbaycanda qarşıdurmalara, xaosa son qoyulmuş, bütün sahələrdə dinamik inkişafa nail olunmuş, ən əsası isə milli ruh və milli mənlik hissi dirçəlmişdir.

Heydər Əliyev böyük qürur və təəssübkeşliklə milli mənliyin prioritet məsələ olduğunu dövlət rəhbəri kimi bütün xalqa bəyan etdi.

1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra milli dövlətçilik tariximizdə ilk dəfə olaraq məhz ulu öndər Heydər Əliyevin simasında siyasi prinsiplərlə milli-mənəvi meyarlar vəhdət şəklində təzahür etmişdir.

Heydər Əliyevin rəhbərliyi ilə dünya azərbaycanlılarını doğma Vətənə xidmət edən mütəşəkkil qüvvəyə çevirmək yolunda dövlət səviyyəsində mühüm işlər görülmüşdür.

Heydər Əliyev Azərbaycan Respublikasının dünyaya inteqrasiyası, iqtisadi-mədəni inkişafı, müstəqilliyimizin möhkəmləndirilməsində əhəmiyyətli rol oynayır, çoxsaylı xarici səfərləri zamanı həmvətənlərimizlə görüşlər keçirir, onların problemləri ilə maraqlanır, dəyərli tövsiyələrini verir, soydaşlarımızı Azərbaycanın ictimai, iqtisadi, mədəni həyatında fəal iştiraka çağırırdı.

"Azərbaycan mənim ürəyimdir" - deyən Heydər Əliyev şəxsiyyətinin möhtəşəmliyi həm də onda təzahür etmişdir ki, o, diaspor ilə işi yalnız ölkənin siyasi-iqtisadi maraqlarının tərkib hissəsi olaraq deyil, ilk növbədə milli-mənəvi məsələ kimi irəli sürürdü.

Milli birliyin ilk növbədə mənəviyyat, məfkurə birliyi olduğunu təsbit edən ümummilli lider Heydər Əliyevin 1996-cı ilin iyul ayında Almaniyaya səfəri zamanı Bon şəhərində soydaşlarımızla görüşündə söylədiyi dərin məzmunlu nitqində onlara öz müdrik tövsiyələrini vermişdir.

Milli birliyin ideoloji əsası olan azərbaycançılıq ideyası məhz ulu öndər Heydər Əliyev tərəfindən formalaşdırılmışdır.

Dünya azərbaycanlılarının mənəvi birliyini, Vətənə bağlılığını təmin edən bu məfkurənin mühüm müddəaları Heydər Əliyevin "Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində" öz konseptual ifadəsini tapmışdır. Xalqın tarixi keçmişinə, müasir dövrə konseptual qiymət verən, mənəvi dəyərlərimizi ümumiləşdirən, milli ideyaları əks etdirən bu tarixi sənəd bir çox önəmli cəhətləri ilə yanaşı, dünya azərbaycanlıları ilə iş üzrə fəaliyyət perspektivlərini müəyyənləşdirilməsi ilə diqqəti cəlb edir.

2001-ci ilin noyabr ayının 9-u və 10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu qurultay dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin yaranması və inkişafı sahəsində mühüm əhəmiyyətə malik olmaqla yanaşı, müstəqil Azərbaycanın ictimai-siyasi həyatında tarixi hadisəyə çevrildi.

Qurultaydakı nitqində ulu öndər demişdir: **"Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adətlərini yaşatmalıyıq".**

Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi həmvətənlərimizin təşkilatlanması prosesində əhəmiyyətli dönüşə gətirib çıxaran addım olmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə həyata keçmiş bu tarixi hadisə Azərbaycan diasporunun daha mütəşəkkil şəkildə olmasına və dinamik fəaliyyətinə təkan vermişdir.

15 İyun - Milli Qurtuluş Gününün bayram edilməsi ilə Ukraynada yaşayan həmvətənlərimiz də qürur hissi keçirir, onlar bir daha təsdiqləyirlər ki, ulu öndər Ukrayna-Azərbaycan dostluğunun memarıdır. Vurğulamaq lazımdır ki, Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra Ukraynaya rəsmi səfərində Azərbaycan diasporunun nümayəndələri ilə yaddaqalan görüş keçirmiş, monolit birliyə nail olmaq üçün soydaşlarımıza dəyərli tövsiyələr vermişdir.

Fərəh hissi ilə qeyd olunmalıdır ki, Heydər Əliyevin əzəmətli heykəli ucaldılmış və adına geniş park salınmışdır. Həmçinin İrpen şəhərində bir küçəyə görkəmli akademik Zərifə Əliyevanın adı verilmiş, həmin ərazidə park salınmış və Zərifə Əliyevanın büstü ucaldılmışdır.

Bu gün Azərbaycanda Heydər Əliyevin siyasi kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkədə bütün sahələrdə dinamik inkişaf müşahidə olunur, milli diasporumuzun təşəkkül tapmasına maksimum səy göstərilir.

Heydər Əliyev ideyaları və dərin islahatlar strategiyası Azərbaycanın uğurlarını təmin edir. Milli Qurtuluş Günü münasibətilə həmvətənlərimizi təbrik edir, inanırıq ki, müstəqil Azərbaycan ümumbəşəri dəyərlərə əsaslanaraq, mütərəqqi yolla irəliləyəcəkdir.

**Əfqan SALMANOV,**
**Azərbaycanın Xarkov şəhərindəki fəxri konsulu,**
**III dərəcəli Vətənə xidmət ordenli.**

# Xalqımızın həyatında dönüş mərhələsi

Azərbaycanda milli şüurun və milli özünüdərkin bütün formalarının böyük vüsət almasına imkan verən sürətli inkişaf strategiyasının seçilməsi, uğurla həyata keçirilməsi dahi Heydər Əliyevin adı ilə bağlıdır. İstehsal, elm, mədəniyyət, Azərbaycan dilinin inkişafı sahəsində əldə edilmiş tərəqqi milli ruhun yüksəlməsinə, milli özünüdərkin və milli qürurun inkişafına, gələcəkdə müstəqil Azərbaycan dövlətinin yaranmasına xidmət edən uzaqgörən planın tərkibhissələri olmuşdur. Həmin mərhələnin əsas məqsədi Azərbaycanda hərtərəfli iqtisadi, siyasi, sosial-mədəni inkişaf zəminində xalqın mübarizlik ruhunu və əzmini gücləndirmək idi.

Təəssüf ki, bu proses və respublikamız üçün olduqca məsuliyyətli, taleyüklü bir məqamda müntəzəm, fasiləsiz xarakter ala bilməmiş Azərbaycan rəhbərliyində, sözün tam mənasında, güclü şəxsiyyətin, ümummilli liderin olmaması ölkəmiz və xalqımız üçün olduqca ağır nəticələrə gətirib çıxarmışdır.

Yeni tarixi inkişaf mərhələsində Azərbaycan Respublikasının qarşısında dövlət müstəqilliyinin möhkəmləndirilməsi, demokratik, hüquqi, dünyəvi dövlət qurulması, respublikanın ərazi bütövlüyünün bərpası, Dağlıq Qarabağ probleminin miili maraqlara uyğun həlli, ölkə əhalisinin rifahının və təhlükəsizliyinin təmin edilməsi kimi mühüm vəzifələr dururdu. Bütün bunlar düşünülmüş, ardıcıl, məqsədyönlü daxili və xarici siyasətin həyata keçirilməsini, bu məqsədlə ölkənin intellektual və sosial-iqtisadi potensialından, ictimai-siyasi qüvvələrindən səmərəli istifadə olunmasını tələb edirdi.

Lakin ölkənin siyasi həyatında cərəyan edən hadisələr, hakimiyyət uğrunda silahlı mübarizə rəhbərliyin bir-birini əvəz etməsi və çoxhakimiyyətliliyin hökm sürməsi müstəqil dövlətçiliyə və onun sonrakı taleyinə çox ağır təhlükə yaradırdı.

Azərbaycanda müstəqil dövlət quruculuğu ardıcıl və məqsədyönlü proses olaraq, əslində 1993-cü ildə ulu öndərimizin hakimiyyətə qayıdışından sonra, xüsusilə oktyabr ayından başlamışdır. Həmin tarixdən başlayaraq Azərbaycanda əldə olunmuş müstəqilliyin möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsi istiqamətində ardıcıl və məqsədyönlü fəaliyyət göstərilmişdir. Dövlətçilik üçün ciddi təhlükə törədən silahlı birləşmələr ləğv edildikdən və dövlət orqanlarında müəyyən idarəçilik təcrübəsinə malik olan adamların bilik və qabiliyyətindən optimal surətdə istifadə olunduqdan sonra daxili sabitlik dövrü başlandı ki, bu da quruculuq işləri üçün ilkin zəruri şərait yaratdı.

Gənc, müstəqil dövlətin keçdiyi inkişaf yolunun zaman baxımından mərhələləri ilə dövlət quruculuğunun istiqamətləri arasında sıx dialektik əlaqə vardır. Təbii ki, dövlət quruculuğu heç də sadəcə dövlət idarəçilik orqanlarının formalaşması ilə başa çatmır. Sözün geniş mənasında, müstəqil dövlətin qərarlaşması onun öz maraqlarına və beynəlxalq siyasi reallıqlara uyğun müstəqil xarici və daxili siyasət xəttinin formalaşmasını, uzunmüddətli proqnoz əsasında müəyyənləşmiş inkişaf strategiyasının yaradılmasını və həyata keçirilməsini nəzərdə tutur.

Azərbaycanda demokratikləşmə, hüquqi dövlət quruculuğu öz xüsusiyyətləri ilə fərqlənir desək, səhv etmərik. Ölkəmizdə aparılan hüquqi islahtlar ciddi konsepsiyaya söykənir və onun əsasında inkişaf etmiş dövlətlərin hüquqi dövlət quruculuğu təcrübəsi, ümumbəşəri demokratik prinsiplər, eyni zamanda, Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri dayanır.

Ulu öndərin həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və mübaliğəsiz deyə bilərik ki, bu tarixin ən şanlı səhifələrindəndir. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bir qərinədən artıq dövrdə ölkənin həyatında, xalqın taleyində elə bir əzəmətli rol oynayıb ki, bu əsrlər bir vətəndaşının xaricdəki minlərlə soydaşımızın, hətta əcnəbi dostlarımızın qəlbində Heydər Əliyev olduğu kimidir, o öz nəhəngliyi ilə daim gözlərimiz önündə canlanır, onun parlaq ideyaları həmişə yollarımızı işıqlandırır.

Azərbaycan xalqının böyük oğlu, görkəmli ictimai-siyasi xadim olan Heydər Əliyev uzun illər respublikamıza rəhbərlik etdi, hətta yüksək təşkilatçılıq bacarığı nəticəsində dünyanın superdövləti olmuş keçmiş SSRİ-nin rəhbərlarindən biri oldu. Yaşlı və orta nəslin nümayəndələri yaxşı xatırlayırlar ki, Heydər Əliyev o zaman yüz milyonlarla əhalinin sevimlisi olmuşdu, keçmiş çoxmillətli İttifaqın vətəndaşları onu böyük məhəbbətlə sevirdi. Hamı bilir ki, ötən əsrin ortalarında mərkəzi hakimiyyətin ən məsul vəzifə kürsüsündə əyləşən bəzi şəxslər xalqımıza qarşı elə də isti münasibət bəsləmirdiiər, ona görə də respublikamız daim geridə qalırdı, insanların həyat şəraiti digər respublikalardakına nisbətən aşağı səviyyədə idi. Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başladığı vaxtdan ölkəmizdə hər şey dəyişdi, irəliyə doğru sıçrayış baş verdi. O, xalqımızın iradəsi əleyhinə yönəldilmiş bütün cəhdləri qətiyyətlə rədd etdi, millətlərin, etnik azlıqların respublikada bərabər hüquqlar əsasında yaşamaq haqqını təmin etdi. Ulu öndərimiz bununla Kremlin özünə nümunə göstərdi, bir sıra rəhbərlər nəticədə onunla hesablaşmalı oldular. Heydər Əliyevin təkidləri nəticəsində respublikada qısa müddətdə iri sənaye müəssisələri yaradıldı, yeni mədəniyyət ocaqları fəaiiyyətə başladı, yaşayış binaları, yollar, körpülər inşa edildi, insanların yaşayış səviyyəsi qat-qat yüksəldi, Azərbaycan dinamik inkişaf və tərəqqi yoluna qədəm qoydu. Milli dövlətçilik ənənələrimizin təşəkkülü ötən əsrin son onilliklərində elə bir səviyyəyə yüksəldi ki, bunu əsl qəhrəmanlıq adlandırmaq olar. Bu dövrü Azərbaycanın intibahı dövrü kimi qiymətləndirənlər heç də yanılmırlar. Heydər Əliyev sözün həqiqi mənasında xalqımızın inkişaf yolunda yeni bir mərhələnin təməlini qoydu, ömrünün sonuna kimi bu yolda zəkasını, biliyini, həyatını əsirgəmədi.

Bütün bunlar, şübhəsiz, Azərbaycanın gələcək müstəqilliyinə hesablanmış siyasət, düşünülmüş addımlar idi. Heydər Əliyev Sovet rejimi illərində xalqının gələcəyini düşünürdü, bilirdi ki, bir vaxt gələcək, Azərbaycan müstəqilliyinə qovuşacaq, bunun üçün isə möhkəm təməl olmalıdır. Qətiyyətlə söyləmək olar ki, Azərbaycanın bugünkü iqtisadi inkişafı o vaxt Heydər Əliyevin yaratdığı möhkəm təmələ söykənir.

Təəssüf ki, müstəqilliyimizin ilk illərində səriştəsiz rəhbərlərin günahı üzündən böyük zəhmət bahasına yaradılmış bu təmələ ağır zərbə vuruldu. Hətta bəzi üzdəniraq qüvvələr Heydər Əliyevin doğma xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə qayıdışına qarşı çıxırdılar, onun Bakıya gəlməsinə mane olmağa çalışırdılar. Lakin xalq öz sözünü dedi və dahi oğlunu yenidən Azərbaycanda hakimiyyətə çağırdı. Heydər Əliyevin xalqın xahişi ilə hakimiyyətə qayıdışı ölkəni vətəndaş müharibəsi həddinə gətirib çıxaran siyasi böhranın, Gəncə hadisələrinin, separatçılıq meyillərin, 1994 və 1995-ci illərdə dövlət çevrilişinə yönəldilən cəhdlərin qarşısını aldı. Xalq bir nəfər kimi ayağa qalxıb ulu öndərə sipər oldu, onun arxasında durdu. Heydər Əliyevin qətiyyəti sayəsində Azərbaycan həmin müdhiş bəlalardan xilas oldu, ölkəmizin müstəqilliyi, əmin-amanlıq və sabitlik qorunub saxlanıldı, ölkəmizin haqq işi dünya miqyasında müdafiə edildi.

Bu gün dərin iftixarla söyləmək olar ki, milli-siyasi mənqənələr arasında sıxılan Azərbaycan məhz ümummilli liderimizin gərgin zəhməti, uğurlu siyasəti sayəsində nicatını tapdı, bundan sonrakı illər də onun siyasətinin nə qədər doğru olduğunu bir daha təsdiqlədi. İndi respublikamızın hər sahədə qazandığı uğurlara görə ilk növbədə Heydər Əliyev dühasına minnətdarıq.

Azərbaycan xalqının keçdiyi tarixi mərhələlərdə Heydər Əliyev kimi unikal, fenomenal, bənzərsiz dövlət xadiminə rast gəlmirik. O, ən humanist, ən demokratik ideyaları özündə ehtiva edən və bunu israrla həyata keçirən dahi rəhbər idi. Ulu öndərimiz doğma xalqın milli şüurunu dirçəldərək, onda gələcəyə tükənməz ümidlərlə baxmaq vərdişi yaratdı. Heydər Əliyev Azərbaycan xalqının malik olduğu potensialın, enerjinin daşıyıcısı olmaqla bu keyfiyyətlərin parlaq nümunəsi oldu. Məhz həmin keyfiyyətlər demokratik, hüquqi, dünyəvi dövlətin bərqərar olmasında və inkişafında mühüm rol oynadı.

Ulu öndərimizin yaradıcılıq gücünə, dərin və parlaq zəkasına, uzaqgörənliyinə və müdrikliyinə heyran qalmamaq olmur. Heydər Əliyevin sağlığında hazırladığı və yürütdüyü siyasət həmişə müasirdir, hər bir dövrün tələbini ödəyən müdrik siyasətdir. Bu gün hər birimiz şahidik ki, bu siyasi kurs nə qədər dəqiq düşünülmüşdür, bizi xoşbəxt gələcəyə aparır. Bunu təkcə biz demirik, dünyanın nüfuzlu liderləri, tanınmış politoloqları, tərəqqipərvər ictimaiyyəti etiraf edirlər.

Heydər Əliyev ölkəmizin müdafiəsinin gücləndirilməsi qayğısına qalırdı, bu işi dövlətçiliyin qorunmasında ən mühüm amillərdən biri, bəlkə də başlıcası hesab edirdi. Müasir şəraitdə bu məsələ daha aktual xarakter almışdır və getdikcə daha fəal yanaşma tələb edir. Regiondakı qeyri-sabit şərait, torpaqlarımızın bir hissəsinin hələ də işğalçı qüvvələrin əlində qalması həmin məsələnin nə qədər mühüm olduğunu bir daha gündəmə gətirir. Buna görə də ölkəmizdə milli ordu quruculuğu prosesi uğurla davam etdirilir. Vətəndaşlarımız bilirlər ki, silahlı qüvvələrimizin yüksəlişi ölkə başçısının yaxından göstərdiyi diqqət və qayğının bəhrəsidir.

Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan ordusu kifayət qədər güclüdür, ölkənin sərhədlərini qorumağa, işğalçı qüvvələri ərazilərimizdən qovub çıxarmağa hər an hazırdır. Bununla yanaşı, ordumuzun möhkəmləndirilməsi prosesi bundan sonra da davam etdirilməlidir. Başlıca vəzifələrdən biri ordunun kadr potensialının gücləndirilməsi, onun sıralarına mətin və cəsur, hər cəhətdən güclü, Vətənə sadiq, torpağa bağlı olan gənclərin göndərilməsidir.

Bütün şüurlu həyatını ölkəmizin çiçəklənməsinə həsr etmiş Heydər Əliyevin müqəddəs ideyaları artıq neçə illərdir ki, bu siyasi kursun ən layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Prezidentin amalı, əqidəsi və ən başlıca məqsədi xalqa, dövlətə sədaqətlə xidmət etmək, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmaqdır. Dövlətimizin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında misilsiz dəyişikliklər baş vermişdir. Bunun üçün Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarının həyata keçirilməsinin yekunlarına diqqət yetirmək kifayətdir. Bu illər ərzində iqtisadiyyatın inkişafı, əhalinin sosial vəziyyətinin yaxşılaşdırıiması, yeni iş yerlərinin yaradılması, şəhər və kəndlərin abadlaşdırılması və müasirləşdirilməsi sahələrində möhtəşəm nailiyyətlər qazanılmışdır.

Cənab İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, qeyri-neft sektorunun inkişaf etdirilməsi qarşıdakı illərdə prioritet olacaq, əhalinin sosial rifah halının yüksəldilməsi davamlı şəkildə aparılan islahatların əsas mahiyyətini təşkil edəcəkdir.

Bir çox beynəlxalq və regional layihələrin həyata keçirilməsi ölkəmizin beynəlxalq aləmdə nüfuz qazanmasına səbəb oldu. Tarix ona fenomenal qabiliyyət bəxş etmişdi. Ümummilli lider Heydər Əliyevin reallaşdırdığı layihə və proqramlar xalqın gələcəyinə hesablanmışdı və zaman göstərdi ki, bunlar əfsanə yox, bir həqiqətdir. Heydər Əlivevin şah əsəri olan müasir Azərbaycanın dövlət müstəqilliyi dönməz xarakter almış, həyatımızın bütün sahələrində köklü dəyişikliklər və dərin islahatlar həyata keçirilmiş, ölkəmiz dünya birliyinin tərkib hissəsinə çevrilmiş, böyük nüfuz qazanmışdır.

Azərbaycanın əldə etdiyi uğurların təməlində Heydər Əliyev dühası, onun müqayisəyəgəlməz siyasi və dövlətçilik təcrübəsi dayanıb. Heydər Əliyev ideyaları müqəddəsdir və daim yaşamalıdır. Bunun məhz belə olduğunu Azərbaycan xalqı özünün böyük oğlunu cismən itirdikdən sonra bir daha tam, aydın formada yəqin etdi. Heydər Əliyev əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi, iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş Azərbaycanı bəxş etdi.

Zəmanəmizin ən nəhəng siyasətçilərindən sayılan bu dahi şəxsiyyətin ölkəmizin tərəqqisində və inkişafındakı rolu danılmazdır.

Heydər Əliyevin siyasi kursu Azərbaycana bütün sahələrdə böyük uğurlar gətirib. Sabitlik, demokratiya və tərəqqi son illərimizi xarakterizə edən mühüm amillərdir. Bu müdrik siyasət nəticəsində Azərbaycan artıq dünyada tanınır, nüfuzu durmadan yüksəlir. Artıq dünya da ölkəmizlə hesablaşır, irimiqyaslı beynəlxalq layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Dövlətin əsas göstəricilərindən biri olan iqtisadiyyatda aparılan köklü islahatların nəticəsində ölkəmiz qısa müddət ərzində bu sahənin yüksəlişini təmin etmişdir.

Biz bu gün ulu öndərimizi xatırlayır, iftixarla deyirik ki, bəli, Azərbaycanın ümummilli lideri, Azərbaycan dövlətinin xilaskarı, yeni Azərbaycanın memarı Heydər Əliyev bizim qəlbimizdə daim yaşayır və yaşayacaq. Gələcək nəsillər onun həyat yolunu araşdıracaq və öyrənəcəklər.

**Əli HÜSEYNOV,**
**Ağsu Rayon Mərkəzi Xəstəxanası baş həkiminin müavini, YAP Ağsu rayon təşkilatının sədri, "Tərəqqi" medallı.**

# Prokurorluq orqanlarına qulluğa qəbulla əlaqədar müsabiqənin yazılı imtahan mərhələsi keçirilib

**İyunun 8-də Bakı İdman Sarayında prokurorluq orqanlarına qulluğa qəbul olunmaq arzusunda olan şəxslər üçün vakant ştat vahidləri üzrə Baş Prokurorluq tərəfindən elan edilmiş müsabiqənin növbəti yazılı imtahan mərhələsi keçirilib.**





AZƏRTAC xəbər verir ki, Baş Prokurorluğun Müsabiqə Komissiyası tərəfindən imtahanın tam şəffaf və aşkarlıq şəraitində, obyektiv prosedurlar əsasında keçirilməsi məqsədilə bütün zəruri tədbirlərin görülməsi təmin edilib. İmtahanı 30-a yaxın müvafiq dövlət qurumlarının, beynəlxalq və qeyri-hökumət təşkilatların nümayəndələri, habelə kütləvi informasiya vasitələrinin təmsilçiləri müşahidə ediblər.

Baş prokurorun müavini, müsabiqə komissiyasının sədri Namiq Əsgərov jurnalistlərə müsahibəsində bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulan və Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq, prokurorluq orqanlarına müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr korpusunun şəffaf prosedurlar əsasında formalaşmasının ən sivil yoludur. 2002-ci ildən başlayaraq prokurorluğa işə qəbulun müsabiqə yolu ilə həyata keçirilməsi onun kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaradıb. Ölkə həyatının bütün sahələrində gənclərin əməyindən hərtərəfli istifadə edilməsi barədə dövlətimizin başçısının verdiyi tapşırıqların icrası yolunda mühüm vasitə olub.

Həmin ildən müsabiqə yolu ilə işə qəbul edilmiş 780 gənc mütəxəssis hazırda prokurorluğun kadr korpusunun 65 faizini təşkil etməklə təyinat aldıqları müxtəlif vəzifələrdə səmərəli fəaliyyət göstərirlər.

Yazılı imtahanda 215 namizəd iştirak edib. Bu imtahanın məqsədi namizədlərin qanunları və digər normativ hüquqi aktları düzgün tətbiq etmək sahəsindəki qabiliyyətlərinin müəyyənləşdirilməsidir. Yazılı imtahanda mümkün 50 baldan 30-dan çox bal toplayanlar müsahibə mərhələsinə buraxılacaqlar.

Ümumiyyətlə, müsabiqənin yazılı imtahan mərhələsində iştirak edən 215 namizəd Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Milli Aviasiya Akademiyasının, Naxçıvan Dövlət Universitetinin və digər ali təhsil müəssisələrinin məzunlarıdır.

İmtahanı müşahidə edən Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Çingiz Qənizadə diqqətə çatdırıb ki, Baş Prokurorluq tərəfindən Azərbaycan Prezidentinin 2001-ci il 19 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnaməyə müvafiq olaraq elan edilmiş müsabiqənin ikinci mərhələsi olan yazılı imtahan təşkil olunur. Bu gün namizədlər imtahanda öz biliklərini nümayiş etdirirlər. Burada müxtəlif qurumların nümayəndələri imtahanın gedişini izləyirlər. Prokurorluq orqanlarına işə qəbul prosesi aşkarlıq şəraitində, tam şəffaf prosedurlar əsasında və beynəlxalq tələblərə uyğun həyata keçirilir. İnanıram ki, müsabiqə nəticəsində hərtərəfli biliyə, savada, yüksək mənəvi dəyərlərə və dövlətçiliyə sadiq insanlar növbəti mərhələyə keçəcək və bu onların prokurorluq orqanlarına işə qəbul olunması ilə nəticələnəcək. Savadlı kadrların yetişməsi Azərbaycan dövlətinin gələcəyinə xidmət edir və qarşıya qoyulan prioritet məsələlərdəndir.

İmtahanı müşahidə edən Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti Rauf Zeyni deyib ki, prokurorluq orqanlarına işə qəbul prosesi tam şəffaf, aşkarlıq, ədalətli seçim və demokratik prosedurlar əsasında həyata keçirilir. Sevindirici haldır ki, aparılan islahatlar nəticəsində son vaxtlar prokurorluq orqanlarında çalışan gənclərin və qadınların sayı artmaqdadır. 2002-ci ildən başlayaraq müsabiqə yolu ilə 780 gənc mütəxəssis işə qəbul olunub. Onlar hazırda prokurorluğun kadr korpusunun 65 faizini təşkil edirlər ki, bu da çox böyük göstəricidir. Gənc kadrların müsabiqə yolu ilə işə qəbul olunmasını qeyri-hökumət təşkilatlarının təmsilçiləri kimi müsbət qarşılayırıq. Qeyri-hökumət təşkilatları bu sahədə ictimai nəzarətin və şəffaflığın təmin olunması istiqamətində hüquq mühafizə orqanları ilə gələcəkdə də sıx əməkdaşlıq edəcək.

“Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları”na müvafiq olaraq yazılı imtahan işləri “ikiqat yoxlama” üsulu ilə Baş Prokurorluğun Müsabiqə Komissiyası və dəvət olunmuş mütəxəssislər tərəfindən yoxlanıldıqdan sonra yekun nəticələr kütləvi informasiya vasitələri ilə ictimaiyyətə açıqlanacaq. Eyni zamanda, bu barədə məlumatlar Baş Prokurorluğun internet səhifəsində (www.prokurorluq.gov.az, www.genprosecutor.gov.az) yerləşdiriləcək.

Qeyd edək ki, müsabiqə ilə bağlı ətraflı məlumat almaq üçün 437-28-56, 492-06-82, 492-74-32 və 492-62-23 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar.

**AZƏRTAC**

# Azərbaycan İspaniyanın nüfuzlu “Ejecutivos” jurnalı tərəfindən Beynəlxalq Turizm Məkanı mükafatına layiq görülüb

**İyunun 7-də Madrid şəhərində İspaniyanın nüfuzlu “Ejecutivos” jurnalının sayca 28-ci mükafatlandırma mərasimi keçirilib.**



Azərbaycanın İspaniyadakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə bu ölkənin dövlət rəsmiləri, müxtəlif nüfuzlu beynəlxalq və yerli şirkətlərin təmsilçiləri, ictimaiyyət, nüfuzlu yerli kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər. Mərasimdə ölkəmizi Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfiri, habelə Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi Anar Məhərrəmov təmsil edib.

“Azərbaycan əlverişli coğrafi mövqeyi, tarixi-mədəni irsi, gözoxşayan təbiəti, təkrarolunmaz arxitekturası və təbii sərvətləri ilə turist axınını özünə cəlb edib və ölkədə təhlükəsizliyin təmin edilməsi, əlverişli əmək bazarı və turizm sektorunun inkişafı üçün münbit şərait yaradılması ilə regionun turizm mərkəzinə çevrilib”. Məhz sadalanan bu səbəblərdən “Ejecutivos” jurnalı tərəfindən ölkəmizin beynəlxalq turizm məkanı mükafatına layiq görüldüyü elan edilib.

Sözügedən mükafatı ölkəmiz adından qəbul edən səfir A.Məhərrəmov, mükafata görə “Ejecutivos” jurnalının rəhbərliyinə təşəkkür edərək, ölkəmizin beynəlxalq turizm məkanı mükafatına layiq görülməsinin bir daha Azərbaycan Respublikasında turizm sektoruna göstərilən dövlət qayğısından xəbər verdiyini qeyd edib. Diqqətə çatdırıb ki, Azərbaycan Ümumdünya Turizm Təşkilatı ilə əməkdaşlığı genişləndirərək, turizmin inkişafında əhəmiyyətli irəliləyişlərə nail olub və bu yalnız ölkədə deyil, ümumilikdə dünyada turizmin davamlı inkişafına önəmli töhfə verib.

Mükafatlandırma mərasimində “Ejecutivos” jurnalının 2018-ci il may ayı buraxılışının təqdimatı da keçirilib. Sözügedən buraxılışda Azərbaycanın beynəlxalq turizm məkanı mükafatına layiq görülməsi ilə əlaqədar, ölkəmizdə turizmin inkişafı meyilini özündə əks etdirən məqalə dərc olunub. Məqalədə ölkədə iqtisadiyyatın şaxələndirilməsi kontekstində turizmin prioritet sahələrdən birinə çevrildiyi, Azərbaycanda son illərdə turizm sahəsində sürətli inkişafa nail olunduğu, bir çox turizm-istirahət komplekslərinin yaradıldığı qeyd olunub. Həmçinin turistlərin cəlb olunması baxımından Ağdamın “Qarabağ” futbol klubunun UEFA Çempionlar Liqasının 2017-2018-ci illər mövsümündə İspaniyanın “Atletiko Madrid” klubu ilə qarşılaşmasına toxunularaq, Azərbaycanın gözəl guşələrindən olan Qarabağın hazırda erməni işğalı altında olduğu diqqətə çatdırılıb. Məqalədə son illərdə ölkəmizdə beynəlxalq humanitar, mədəniyyət, idman və digər sahələrdə uğurla həyata keçirilmiş tədbirlərlə bağlı məlumat da əks olunub.

**AZƏRTAC**

# Bakıda “LİBRAFF Park Akademiya” kitab mağazasının açılışı olub

**İyunun 8-də “LİBRAFF Park Akademiya” kitab mağazasının açılışı və Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə dair kitablarının sərgisinə həsr edilən tədbir keçirilib.**






AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən Avropa Azərbaycan Cəmiyyətinin (TEAS) sədri Tale Heydərov “LİBRAFF Park Akademiya” kitab mağazasının açılmasının Azərbaycanda kitab ticarətinin inkişaf etdirməklə bərabər, ədəbiyyatın və mütaliənin təbliğatı missiyasını daşıdığını bildirib. “Bu kitab mağazası Milli Elmlər Akademiyasının, bir sıra böyük təhsil ocaqlarının yerləşdiyi ərazidə fəaliyyət göstərəcək. Yəni, tələbələr çox rahatlıqla bu kitabxananın xidmətlərindən istifadə edə biləcəklər. Ümid edirəm ki, bu kitab mağazası oxucuların, o cümlədən tələbələrin ən sevimli məkanlarından birinə çevriləcək. Oxucular burada dünyanın ən görkəmli nəşriyyatlarının nəşrləri, müasir poliqrafiyanın son nailiyyətləri ilə tanış ola biləcək. Bununla da “LİBRAFF Park Akademiya” elmi-mədəni və kitab mərkəzi kimi formalaşacaq”, - deyə TEAS-ın sədri vurğulayıb.

“LİBRAFF”ın yaranması yolunda “TEAS Press” Nəşriyyat Evinin mühüm rol oynadığını qeyd edən Tale Heydərov bildirib “TEAS Press”, “3 alma” və “Yay” markaları ilə çıxan kitablar artıq oxucuların sevimli nəşriyyat brendlərinə çevrilib. Həmin kitablar təkcə ölkə daxilində deyil, xaricdə də oxucular tərəfindən böyük rəğbət qazanıb.

“Bu gün, həmçinin Avropa Azərbaycan Cəmiyyətinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə dair kitablarının da təqdimatı təşkil edilib. Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ili “Azərbaycan Xalq Cümhuriyyəti İli” elan edib. Ölkəmizdə və xaricdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı silsilə tədbirlər keçirilir. Azərbaycan Avropa Cəmiyyəti də bu tarixi hadisəyə öz töhfəsini verməyə çalışır. Belə ki, Cəmiyyət tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı kitablar nəşr edilir. Onların içərisində Türkiyə Respublikasının Osmanlı dövrü arxivləri və mətbuatından toplanmış sənəd və materiallardan ibarət 4 toplu mühüm yer tutur. Həmçinin 1923-1927-ci illərdə Məmməd Əmin Rəsulzadənin rəhbərliyi və redaktorluğu ilə İstanbulda çıxmış “Yeni Kafkasya” dərgisnin bütün saylarını əhatə edən dörd cildlik də bu gün burada nümayiş etdirilir”.

“LİBRAFF” kitab mağazasının açılmasının Azərbaycan ədəbiyyatı və oxucular üçün böyük töhfə olduğunu bildirən mədəniyyət nazirinin müavini Vaqif Əliyev belə bir kitabxananın yaradılmasında zəhməti olan hər kəsi və oxucuları təbrik edib.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyində belə bir kitabxananın açılmasının təqdirəlayiq hal olduğunu qeyd edən nazir müavini deyib ki, Azərbaycan Xalq Cümhuriyyətində də elmə, təhsilə, maariflənməyə böyük önəm verilirdi.

“Bu kitab mağazasının açılması Azərbaycanda elmə, təhsilə marağın göstəricisidir. Azərbaycanda kitaba hər zaman diqqət olub. Kitab bizə bir sərvət olaraq miras qalıb. “Avesta”, “Kitabi-Dədə Qorqud” kimi ədəbiyyat nümunələrimiz Azərbaycan xalqının ta qədimdən başlayaraq belə gözəl əsərlər yaratdığını sübut edir”, - Vaqif Əliyev vurğulayıb.

Hər bir xalqın parlaq gələcəyində kitabın rolunu qeyd edən Azərbaycanın Xalq Yazıçısı Çingiz Abdullayev deyib: “Əgər bir xalq inkişaf etmirsə, o xalqın gələcəyi yoxdur və heç nəyə də nail ola bilməz. Kitablarımız dünyada nə qədər çox tanınsa, bizi də o qədər çox tanıyacaqlar. Yazıçı xalqın ədəbiyyatda vəkilidir. O, xalqı təmsil edir. Əgər sən Azərbaycan yazıçısısansa və öz xalqını müdafiə etmirsənsə, bəs onda bunu kim etməlidir? Əlbəttə, sən etməlisən. Azərbaycan yazıçısı xalqının tərəfində olmalıdır”.

Avropa Azərbaycan Cəmiyyətinin Azərbaycanşünaslıq Mərkəzinin rəhbəri professor Kərim Şükürov bildirib ki, bu gün “LİBRAFF” kitab mağazaları şəbəkəsinin açılması ölkəmizin sosial-mədəni həyatında mühüm hadisələrdəndir. Azərbaycanda kitabı çox oxuyanlar haqqında belə deyirlər ki, o, kitabla danışır. Bu gözəl məkana gələnlərin hər biri yüzlərlə yeni kitabla tanış olacaq. Onlar burada kitablarla danışmaq imkanı əldə edəcəklər. O bildirib ki, qədim zamanlardan həmişə kitaba dərin diqqət olub. 1300 illiyini dünyada təntənə ilə qeyd etdiyimiz “Kitabi-Dədə Qorqud” dastanı göstərir ki, bizim kitabçılıq mədəniyyətimizin böyük tarixi var.



Milli Məclisin deputatı Musa Qasımlı qeyd edib ki, bu gün Azərbaycanın mədəni, ictimai həyatında önəmli bir gündür. Bu kitab mağazası həm məkanına, həm də tərtibatına görə gözəldir. Buradakı kitablar poliqrafiyasına görə də xüsusilə fərqlənir. Bu kitabların Azərbaycanda nəşr edilməsi ilə ölkəmizdə yeni poliqrafiya mədəniyyətini formalaşdırır. Bu, poliqrafiya işində bizim üçün yeni bir səhifədir.

Mərasim bədii hissə ilə davam etdirilib.

Qeyd edək ki, 2017-ci ildə yaradılmış “LİBRAFF” Azərbaycanda ən böyük modern kitab mağazaları şəbəkəsidir. “LİBRAFF” kitab mağazaları paytaxtımızın əsas görkəmli yerlərində, Heydər Əliyev Beynəlxalq Hava Limanında və tanınmış ticarət mərkəzlərində, həmçinin Gəncədə oxucuların xidmətinə verilib.

“LİBRAFF” Azərbaycan, rus, ingilis, türk və digər dillərdə olan zəngin kitabxanası ilə insanların xidmətindədir. Mağazalarda yerli və aparıcı dünya nəşriyyatlarının klassik əsərləri, xüsusi seçilmiş müasir ədəbiyyat nümunələri, uşaq və yeniyetmələrin fərdi inkişafına istiqamətlənmiş əyləncə və oxu materialları təqdim olunur. Bu kitablar və nümunələr mövzu zənginliyi, çap və kağız keyfiyyəti ilə uzun illər şəxsi kitabxanaların ayrılmaz hissəsi olacaq.

**AZƏRTAC**

# Zəlzələ nəticəsində dəymiş ziyanla bağlı Zaqatala sakinlərindən komissiyaya 1066 müraciət daxil olub

**İyunun 5-də baş vermiş zəlzələ nəticəsində fərdi evlərə və tikililərə dəymiş ziyanla bağlı indiyədək Zaqatala rayon fövqəladə hallar komissiyasına vətəndaşlar tərəfindən 1066 müraciət daxil olub.**

Bu barədə AZƏRTAC-ın bölgə müxbirinə Zaqatala Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, rayon fövqəladə hallar komissiyasının sədri Tofiq Əhmədov məlumat verib.

Qurumun rəsmisi bildirib ki, zəlzələ nəticəsində dəymiş ziyanı müəyyənləşdirmək məqsədilə hazırda Fövqəladə Hallar Nazirliyinin mütəxəssisləri, həmçinin rayon fövqəladə hallar komissiyası və aidiyyəti qurumlar tərəfindən zərər çəkmiş ərazilərdə araşdırmalar davam etdirilir. Ötən gün sosial təyinatlı obyektlərə baxış keçirilib. Bu gün isə vətəndaşların müraciətləri əsasında zərər dəymiş fərdi evlərə, yardımçı tikililərə baxılır. Komissiyaya ən çox müraciət zəlzələnin episentrində yerləşən Əliabad qəsəbəsinin, həmçinin Muxax, Gözbarax, Çobankol, Suvagil, Qımır, Bazar kəndlərinin sakinlərindən daxil olub.

“Nazirliyin mütəxəssislərinin iştirakı ilə aparılan araşdırmalar başa çatdıqdan sonra təmir və bərpaya ehtiyacı olan tikililər müəyyənləşdiriləcək”, - deyə komissiya sədri bildirib.

**AZƏRTAC**

# Əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi məsələləri müzakirə olunub

**Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev nazirlik yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyətinin, əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi məsələlərinin müzakirəsi, bu sahədə qarşıda duran vəzifələrin müəyyən olunması məqsədilə müşavirə keçirib.**

İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, S.Babayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial-iqtisadi inkişaf strategiyası nəticəsində ölkəmizdə yeni iş yerlərinin açılmasının daimi xarakter aldığını, əhalinin məşğulluq səviyyəsinin artdığını, əmək bazarında sabitlik və inkişaf tempinin mövcud olduğunu vurğulayıb.

Nazir, eyni zamanda, əmək bazarında qanunvericiliyin icrasına nəzarət, işçi hüquqlarının təminatı prinsiplərinin gücləndirilməsinin vacibliyini diqqətə çatdırıb. Bu istiqamətdə Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyətinin hazırda tələb olunan səviyyədə olmadığını qeyd edən S.Babayev bildirib ki, ilk növbədə əmək müfəttişliyi sistemində, məmur-sahibkar münasibətlərində şəffaflıq tam təmin edilməli, korrupsiyaya şərait yaradan halların qarşısı alınmalı, vətəndaş müraciətlərinin hər biri ilə bağlı qısa vaxtda, operativ araşdırmaların nəticəsinə əsasən qanunauyğun tədbirlər görülməli, bu sahədə süründürməçilik hallarına yol verilməməlidir.

Nazir qeyri-rəsmi məşğulluğun qarşısının alınmasının mühüm sosial-iqtisadi əhəmiyyətini qeyd edib. Bildirib ki, Dövlət Əmək Müfəttişliyi Xidməti dövlət başçısının 2017-ci il 09 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”nın icrasında konkret nəticələrə nail olmaqla, qeyri-rəsmi əmək münasibətlərinin leqallaşdırılması sahəsində məqsədyönlü tədbirlərlə ölkənin sosial-iqtisadi inkişafına öz dəyərli töhfəsini verməlidir.

Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsünə əsasən, qəbul edilmiş qanunla sahibkarlıq subyektlərində yoxlamaların aparılması 2021-ci ilədək dayandırılıb və bu qanunun tələblərinə Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən də ciddi riayət olunmalıdır. “ASAN Xidmət”in Əmək Münasibətlərinin Monitorinqi Mərkəzi tərəfindən tikinti sahələrində aparılan monitorinqlərin nəticələri ilə bağlı Xidmət aidiyyəti araşdırmalarını operativ şəkildə yerinə yetirməlidir.

Nazir diqqətə çatdırıb ki, istehsalat qəzaları ilə bağlı təhqiqat işlərinin aparılmasında operativlik artmalı və adekvat tədbirlər görülməli, eyni zamanda, belə qəzaların qarşısının alınması, ümumən əməyin təhlükəsizliyi üçün önləyici tədbirlər barədə işəgötürənlərin geniş məlumatlandırılması, istehsalatda baş verən bədbəxt hadisələrin səbəblərinin təhlil olunaraq, belə hadisələrin baş verməməsi üçün preventiv tədbirlərlə əlaqədar aidiyyəti qurumlara müvafiq təkliflər verilməsi işləri aparılmalıdır. Habelə, əmək qanunvericiliyinin pozulması halları ilə bağlı inzibati tədbirlərin görülməsi ilə iş yekunlaşmamalı, müvafiq sahədə işəgötürənlərə fəal şəkildə metodiki dəstək göstərilməlidir. Xidmət öz fəaliyyətini nazirliyin digər struktur bölmələri, xüsusilə də nazirlik yanında Dövlət Məşğulluq Xidməti, Dövlət Sosial Müdafiə Fondu ilə əlaqəli, habelə sosial tərəfdaşlarla - həmkarlar və işəgötürənlər təşkilatları ilə fəal əməkdaşlıq müstəvisində qurmalı və bu fəaliyyət işçi hüquqlarının müdafiəsində vətəndaş məmnunluğuna səbəb ola biləcək praktik nəticələri özündə ehtiva etməlidir.

**Mustafa KAMAL,**
**“Respublika”.**

# Məktəblilərin tarixə dönən bir günü

## *T.İsmayılov adına 6 saylı “İntellekt” məktəb-liseydə dördüncü sinif şagirdlərinin buraxılış gününə həsr olunmuş tədbir*

**Son illər təhsilin inkişafı, bu sahədə aparılan məqsədyönlü islahatlar, həyata keçirilən proqramlar, xüsusilə ölkə Prezidentinin təhsilə diqqət və qayğısı, Heydər Əliyev Fondunun “Yeniləşən Azərbaycana yeni məktəb” proqramı çərçivəsində görülən işlər onu deməyə əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin ənənələrinə əsaslanaraq ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi prinsiplərə uyğun inkişaf edir. Təhsil sahəsində islahatların həyata keçirilməsi istiqamətində Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı fərman və sərəncamlar, verdiyi tövsiyə və göstərişlər də mühüm əhəmiyyət kəsb edir.**



Dünya təhsil sisteminə inteqrasiya etdiyimiz indiki dövrdə yeni təhsil sisteminin əsas məqsədi müasir təlim metodlarından istifadə etməklə intellektli, yüksək potensiala malik hərtərəfli gənclər yetişdirməkdir.

Öz işini dövrün tələb etdiyi müasirlik baxımından aparan ən qabaqcıl məktəblərdən biri də Səbail rayonunda fəaliyyət göstərən T.İsmayılov adına 6 saylı “İntellekt” məktəb-liseyidir. Uzun illərdir ki, bu təhsil ocağına respublikanın Əməkdar müəllimi Gülşən Orucova rəhbərlik edir. Bu təhsil ocağı keçən tədris ilində böyük uğurlar qazanıb. Belə ki, məktəbi bitirən 127 nəfər məzunun hamısı ali məktəblərə daxil olub. Onlardan 27 nəfəri xarici ölkələrin ali təhsil ocaqlarında təhsil alır. 20 nəfər məzun fərqlənmə attestatına layiq görülüb. Məzunlardan 20 nəfəri 500-dən, 9 nəfəri isə qəbul imtahanlarında 600-dən çox bal toplayıb. 3 nəfər Qızıl medal alıb, 2 nəfər isə Prezident təqaüdünə layiq görülüb. Bu məktəb yeganə təhsil ocağıdır ki, burada beynəlxalq təhsil sistemi tətbiq edilir. Bu da o deməkdir ki, xarici ölkələrdə təhsil alan məzunların sayı ildən-ilə artır.



Əldə olunmuş bütün uğurların təməlində ulu öndər Heydər Əliyevin əsasını qoyduğu təhsil islahatları dayanır və onun siyasi kursu bu gün məktəbin fəxri məzunu, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən müasir tələblərə uyğun olaraq davam etdirilir, milli təhsil sistemi dünya təhsil sisteminə sürətlə inteqrasiya edir.

Məktəbdə tez-tez bir-birindən maraqlı tədbirlər keçirilir. Belə tədbirlərdən biri də bu günlərdə məktəbin akt zalında rus bölməsində təhsil alan dördüncü sinif şagirdlərinin buraxılış gününə həsr olunmuş tədbir oldu. Mərasimin təşkil olunduğu akt zalı bayramsayağı bəzədilmişdir. Tədbiri sinif rəhbəri İradə Cəlilova təşkil etmişdir. Təbii ki, şagirdlər rus bölməsində oxuduqları və bu dilə mükəmməl yiyələndikləri üçün onların əsas çıxışları da rus dilində aparılırdı.

Şagird - aparıcılar mərasimi açıb iştirakçıları salamladılar, onları buraxılış günü münasibətilə təbrik etdilər. Ürəkləri fərəh və həyəcanla dolu olan şagirdlər səhnəyə çıxdılar. Şagirdlər dahi bəstəkar, Azərbaycan musiqisinin banisi Üzeyir Hacıbəylinin “Arşın mal alan”, “O olmasın, bu olsun” filmindən hazırladıqları bir parçanı diqqətə çatdırdılar. Bir qrup səhnəyə çıxan şagirdlər hazırladıqları şeir, mahnı və rəqs nömrələrini məharətlə təqdim etdilər. Bir-birini əvəz edən və səhnəyə çıxan şagirdlər “Bakı haqqında”, “Vətən haqqında”, “20 Yanvar”, “Şəhidlər” haqqında hazırladıqları kompozisiyanı göstərdilər.

Əllərində tər qərənfil dəstəsi tutan uşaqlar bu əmin-amanlıq günümüz üçün canından keçən şəhidlərimizi xatırladılar, onları yada saldılar.

Buraxılış tədbirində məktəbin müəllimləri, valideynlər və dəvət olunmuş qonaqlar da iştirak edirdilər. Tədbirdə iştirak edən, bir-birindən maraqlı kompozisiyalarda öz şagird dostları ilə birlikdə fəal çıxış edən rus bölməsinin dördüncü buraxılış sinfinin şagirdi Teymur Əhmədbəylinin valideyni İlkin Əhmədbəyli ilə söhbət etdik. O dedi: “Fəxr edirəm ki, oğlum Teymur Əhmədbəyli cənab Prezidentimiz İlham Əliyevin təhsil aldığı məktəbin şagirdidir. Çalışacağam ki, oğlum gələcəkdə həmin məktəbin adına layiq fəxri vətəndaş kimi yetişə bilsin”.

Tədbirdə Bakının keçmişini və bu gününü əks etdirən 6 seriyalı film göstərildi. Şagirdlər hərbi geyimdə “İgid əsgər, möhkəm dayan” mahnısının sədaları altında hərbi marş nümayiş etdirdilər.

Şənlik başa çatdıqdan sonra söz məktəbin direktoru, Əməkdar müəllim Gülşən Orucovaya verildi. O, buraxılış günü münasibəti ilə valideynləri, müəllimləri və şagirdləri təbrik etdi. Təhsil ocağında görülmüş işlərdən, əldə olunmuş uğurlardan danışdı. Tədbirin hazırlanmasında zəhmət payı olmuş sinif rəhbəri İradə Cəlilovaya və digər müəllimlərə təşəkkür etdi. Şagirdlərin şənlikdəki çıxışlarını yüksək qiymətləndirdi və onlara daha böyük uğurlar arzuladı. Tədbirin sonunda söz alan məktəbin müəllimləri və valideynlər onlar üçün yaradılmış şəraitə, təhsilə, təhsil işçilərinə göstərilən diqqət və qayğıya görə ölkə başçısına minnətdarlıq etdilər.

**Məhəmməd VƏLİYEV,**
**“Respublika”.**
**S.MƏMMƏD (foto).**

# Məktəbdə tədbir



**Ağstafa rayon Əmirxan Hüseynov adına 1 nömrəli məktəbdə birincilərin Əlifba bayramına həsr olunmuş tədbir keçirildi. Tədbirdə məktəbin direktoru Sahilə Xəlilova çıxış edərək birinciləri Əlifba bayramı münasibətilə təbrik etdi və onlara cansağlığı və gələcək fəaliyyətlərində uğurlar arzuladı. Tədbirdə birincilər Ana, Vətən haqqında şeirlər söylədilər, mahnılar ifa etdilər. Müxtəlif nağıllardan parçalar, səhnəciklər göstərdilər. Sonra tədbirin təşkilatçısı, birincilərin sinif rəhbəri Bahar müəllimə də uşaqları təbrik etdi. Onlara uğurlar arzuladı.**

**Kəmalə AZƏRQIZI.**

# “HƏR MƏKTƏBDƏ CÜMHURİYYƏT İŞIĞI”

## *layihəsinin uğuru*

**Atalar yaxşı deyib: “Keçmişini unudanın gələcəyi olmaz”. Gənc nəsil Vətənin, xalqın keçmişi haqqında aydın təsəvvürə malik olmalıdır. Azərbaycanda yeni nəsil müstəqil dövlətçilik, millətçilik ruhunu dərindən öyrənməli, bu ruh onun qanına, vicdanına hopmalıdır. Müsəlman Şərqində və türk dünyasında ilk demokratik cümhuriyyəti yaradan şəxsləri, onların yaratdığı ideologiyanı, məfkurəni yeni nəslə öyrətmək mühüm amillərdən biridir. Prezident İlham Əliyevin 2018-ci ili “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan etməsi də məhz buna xidmət edir. Müstəqil respublikamız, xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinə böyük qürur hissi və hörmətlə yanaşır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması əslində 1828-ci ildə baş tutan işğaldan sonra xalqımızın itirilmiş dövlətçiliyinin bərpası idi. Bu faktın özü cümhuriyyətin yaradılmasının nə qədər önəmli hadisə olduğunu bir daha təsdiqləyir.**



Xalq Cümhuriyyətinin təhsilin inkişafına da böyük diqqət yetirməsi xalqın gələcəyini düşünmək baxımından çox önəmli fakt idi. Təhsil hər bir ölkənin, xalqın inkişafını müəyyən edən və bu inkişafa güclü təsir göstərən fundamental amillər sırasında yer alır. Ayrı-ayrı ölkələr heç də təbii resurslarına görə deyil, ilk növbədə təhsilin, innovasiyaların sayəsində yüksək inkişaf səviyyəsinə çatıblar. Bu mənada yüz il bundan əvvəl yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin təhsilin inkişafına böyük diqqət göstərməsi xalqın gələcəyini düşünmək baxımından çox önəmli fakt idi. Məlumdur ki, Xalq Cümhuriyyəti çox mürəkkəb və ziddiyyətli bir tarixi şəraitdə fəaliyyət göstərib. Buna baxmayaraq, xalqımızın milli oyanışını əbədi etməyə çalışan cümhuriyyət hökuməti və parlamenti elmin, təhsilin və xalq maarifinin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində məktəblər, gimnaziyalar, qız məktəbləri, uşaq bağçaları, qısamüddətli müəllim kursları, kitabxanalar açılır, kənd yerlərində xəstəxana və feldşer məntəqələri şəbəkəsi yaradılır, yoluxucu xəstəliklərə qarşı mübarizə aparılırdı. O dövrdə müxtəlif sahələrdə kadr çatışmazlığı bütün ciddiliyi ilə gündəlikdə dururdu. Xalq Cümhuriyyətinin milli mənafeyə hesablanan çoxşaxəli fəaliyyətində milli kadr hazırlığının diqqət mərkəzində saxlanılmasının əhəmiyyətini xüsusi qeyd edə bilərik. Qısa fəaliyyəti dövründə cümhuriyyət parlamenti hökumətin təklifinə əsasən 100 nəfər azərbaycanlı gəncin dövlət hesabına təhsil almaq üçün xarici ölkələrə göndərilməsi barədə qanun qəbul etdi.

Bu gün də ölkəmizdə fəal milli maarifçilik xətti yaradılır, Prezident İlham Əliyevin rəhbərliyi ilə təhsil islahatları uğurla həyata keçirilir. Hazırda təhsil sahəsində aparılan islahatların yaxın gələcəkdə müsbət nəticələrə gətirib çıxaracağını əminliklə söyləyən ölkə başçısı təhsilin inkişafını daim diqqət mərkəzində saxlayır. Müasir dövrümüzdə müəllifi ulu öndərimiz Heydər Əliyev olan təhsil strategiyasını bu gün dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın hərtərəfli qayğısı ilə yeni dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilir.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi ilə əlaqədar olaraq demək olar ki, ölkəmizdə fəaliyyət göstərən bütün təhsil müəssisələrində silsilə tədbirlər, mühazirə, konfrans, seminar və “Dəyirmi masa”lar keçirilir. Bu təhsil müəssisələrindən biri də hər zaman nailiyyətləri ilə öndə olan, yaddaqalan layihələrə imza atan paytaxtın Səbail rayonunda yerləşən Tofiq İsmayılov adına 6 nömrəli məktəb-liseydir.

Hazırda “Hər məktəbdə cümhuriyyət işığı” adlı layihə həyata keçirilir. Layihə ilə tanışlıq zamanı ərsəyə gələn çox maraqlı bir fotoşəkil diqqət çəkir. Onu da qeyd edək ki, bu şəklin ərsəyə gəlməsində böyük səy göstərən məktəbin tarix müəllimi, təşkilatçılığı ilə daim diqqət mərkəzində olan, ictimai fəaliyyətinə görə Milli Azərbaycan Tarix Muzeyi və digər dövlət qurumları tərəfindən dəfələrlə təşəkkürnamə ilə təltif olunmuş İsmayılova Ülviyyə Ələsgər qızıdır. Qeyd etdiyimiz fotoşəklin ərsəyə gəlməsi ilə bağlı Ülviyyə müəllimənin fikirlərini öyrəndik.

Ülviyyə müəllimə deyir: “Azərbaycan Xalq Cümhuriyyəti” dövrü Azərbaycanın şanlı tarixidir. Bu şanlı tariximizi daim xatırlayır və qürur duyuruq. Bakı şəhəri 126 saylı məktəbin tarix müəllimi Şirincan Məmmədova 100 illiyə töhfə vermək məqsədilə mənə Tvining Avropa İttifaqının Fasiləsiz Təhsil Proqramı çərçivəsində bu mövzunu əhatə edəcək layihə hazırlamaq təklif etdi. Bu təklif ürəyimcə oldu. Və beləliklə, “Hər məktəbdə cümhuriyyət işığı” adlı layihə Şirincan müəllimənin təklifi ilə ərsəyə gəldi və biz layihə üzərində birlikdə işləməyə başladıq. Layihənin məqsədi Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə aid 100 məktəbin qarşılıqlı fikir mübadiləsidir. Layihə mart ayının əvvəlindən başlayaraq may ayının sonuna kimi davam etməli idi. Ancaq bu mövzu çox geniş olduğundan layihə üzvlərinin sayının, həmçinin layihəyə marağın artdığını gördükdə layihənin ilin sonuna qədər açıq saxlamaq qərarına gəldik.

Layihədə 154 üzv var, bunlardan 104-ü müəllim, 49-u isə şagirddir. Layihənin gedişində AXC dövrünə aid şəkillərin yenidən canlandırılmasına aid təkliflər oldu. Və mən şagirdlərimlə birlikdə axtarışlara başladım ki, hansı şəkili canlandırmaq daha maraqlı ola bilər. İnternet saytlarının birində “AXC və mədəniyyətimiz” adlı şəkil diqqətimi cəlb etdi. Şəkildə Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaşayıb-yaratmış mədəniyyət xadimləri öz əksini tapmışdır. Bu şəkli yenidən canlandırmaq üçün şagirdlərim çox əmək sərf etdilər. Bir əsr əvvəlin geyimlərinə bənzər geyimlər, əşyalar axtarışına başladıq. Bu, hətta valideynlərin də marağına səbəb oldu. Onlar da geyimləri axtarmaqda bizə yaxından köməklik göstərdilər. Şəklin eynisini yaratmağa çalışdıq. Və sonda şəkil hazır oldu. Şəkil hazır olduqdan sonra da böyük marağa səbəb oldu. Bu şagirdlərimi və məni çox sevindirir. Bu şəkil bizi həm keçmişimizə apardı, həm də bizi özümüzə tanıtdı. Bu baxımdan məktəbimizin direktoru Gülşən Orucovanın yaratdığı imkanlardan çox razıyam. Hər cür mütərəqqi yeniliyin tətbiqi üçün o, əlindən gələni edir. Məhz buna görə də məktəbimizin uğurları ildən-ilə artır.

Onu da qeyd edək ki, 6 nömrəli məktəb-liseydə 100 illiklə bağlı bir çox tədbirlər həyata keçirilib. Bunlardan AXC-nin fəaliyyət və həyata keçirdiyi tədbirlərdən, dövlətçilik tariximizdəki rolundan bəhs edən videoçarx və filmlərin şagirdlərə göstərilməsi, həmçinin məktəbdə təşkil olunan fotostendlər və şagirdlərin əl işlərindən ibarət sərgi də marağa səbəb olmuşdur. Haqqında söz açdığımız şəkil isə 6 nömrəli məktəb-liseyin Cümhuriyyətin 100 illik yubileyinə həsr etdiyi yaddaqalan töhfələrindən biri idi.

Biz də öz növbəmizdə məktəbin rəhbərliyinə, müəllim və şagirdlərinə gələcəkdə daha böyük, yaddaqalan layihələrə imza atmaq diləyi ilə uğurlar arzulayırıq.

**Nurəngiz BAĞIROVA,**
**“Respublika”.**

# Turizm inkişaf etdikcə daha gəlirli sahəyə çevrilir

**Odlar diyarı Azərbaycanın çox əlverişli və strateji coğrafi məkanda, tarixi “İpək yolu” üzərində yerləşməsi və əsrlər boyu müxtəlif xalqların və dinlərin bu ərazidə mövcud olması ölkəmizə unikallıq və özünəməxsusluq vermişdir. Həmçinin dünyadakı 11 iqlim qurşağından 9-nun Azərbaycan ərazisində mövcudluğu ölkəmizdə ilboyu müxtəlif xarakterli turizm məhsullarının yaradılmasına və inkişafına imkan vermişdir.**

Xəzər dənizinin qumlu sahilləri, regionlardakı əsrarəngiz təbiət, dağ-xizək kurortları, Naftalan müalicəvi nefti, Qalaaltı sanatoriyası, UNESCO-nun Ümumdünya irsinə daxil edilmiş tarixi abidələr, müasir memarlıq nümunələri, eyni zamanda millətimizə xas olan qonaqpərvərlik ənənəsi Azərbaycanda müxtəlif turizm istiqamətləri üzrə istirahətin təşkilinə geniş imkan yaradır.

Son illər ölkəmizdə ənənəvi turizm növləri və məhsulları ilə yanaşı, alternativ turizm növlərinin təbliği və inkişafı istiqamətində də mühüm tədbirlər keçirilmişdir. Məsələn, “Şahdağ”, “Tufandağ” və bu kimi layihələrin reallaşması Azərbaycanda turizmin mövsümilik probleminin aradan qaldırılmasına geniş imkanlar yaratmışdır.

Ölkəmizin turizm potensialının dünya miqyasında təbliğinə, gələn əcnəbilərin ildən-ilə say artımının çoxalmasına təsir göstərən ən vacib amillərdən biri respublikamızın müxtəlif beynəlxalq idman yarışlarına, forumlara, eyni zamanda sərgilərə ev sahibliyi etməsidir. Buna nümunə olaraq, Bakıda keçirilən “Eurovision-2012” mahnı müsabiqəsini, “Bakı-2015” ilk Avropa Oyunlarını, Formula 1 Avropa Qran-pri yarışmasını və nəhayət turizm sərgilərini göstərmək olar.

Hər il olduğu kimi, bu il aprelin 5-7 tarixlərində paytaxt Bakının ev sahibliyi etdiyi beynəlxalq turizm sərgisi bunun əyani təzahürüdür. Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva aprelin 6-da Bakı Ekspo Mərkəzində “AİTF-2018” XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər və “HOREX Caucasus-2018” XII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olmuşdular.

Qeyd edək ki, ölkəmizdə 17-ci dəfə təşkil olunan sərgi turizm biznesi, yerli və regional turizm təşkilatları, dövlət strukturları, eləcə də media nümayəndələrini bir araya toplayaraq regionun həm daxili, həm də xarici turizm dinamikasını yaxından təqdim etmişdir. Burada, həmçinin Xəzəryanı regionun turizm sənayesinin əsas sərgisində mühüm görüşlər keçirilmiş, tərəfdaşlıq müqavilələri imzalanmış, habelə yeni proqram və turizm marşrutları elan edilmişdir.

“Bütün dünya - bir sərgi” şüarı altında keçirilən builki sərgidə 20 ölkəni təmsil edən 277 şirkət iştirak etmişdir. İştirakçılar arasında Azərbaycanla yanaşı, Bolqarıstan, Çexiya, Dominikan, Gürcüstan, İndoneziya, İtaliya, İsveçrə, Mərakeş, Rusiya, Sloveniya, Tailand, Türkiyə və digər ölkələri təmsil edən şirkətlər yer almışdır. Ümumiyyətlə, ziyarətçilər 90-dan artıq xarici turizm istiqaməti, eləcə də ölkə daxilində istirahət imkanları ilə tanış olmuşlar. Bu dəfəki sərgidə müxtəlif hava yolları və otel şəbəkələri, eləcə də turizm sahəsi üzrə digər xidmət növləri təqdim edilmişdir.

Məlum olduğu kimi, ölkə başçısı 2016-cı il 1 sentyabr tarixli “Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” sərəncam imzalayıb. Sərəncamda ötən müddət ərzində ölkəmizin turizm sektorunun inkişafını təmin etmək məqsədilə bir sıra mühüm işlər görülmüşdür. Yenicə yaradılmış Turizm Şurası respublikamızın turizm sənayesinin inkişafına müsbət təsir göstərməkdədir. Turizm Şurasının yaradılmasında əsas məqsəd Azərbaycanda turizm sahəsində mövcud vəziyyətin təhlil edilməsi, turizm sahəsində dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrasının əlaqələndirilməsindən ibarətdir.



Son illərin nəticəsi onu göstərir ki, turizm ölkəmizdə qeyri-neft sektorunun prioritet istiqamətlərindən biridir və milli iqtisadiyyatın inkişafı üzrə yol xəritəsində mühüm yer tutur. Digər tərəfdən, Milli Turizm Təbliğat Bürosu 2017-ci ildə yaradılmasına baxmayaraq uğurla fəaliyyət göstərir. Büro tərəfindən son vaxtlar turizmin təbliği istiqamətində mühüm layihələrə imza atılıb. Məsələn, bu ilin bayram günlərində Fəvvarələr meydanında təşkil edilən tədbirlərdə minlərlə insan iştirak edib.

Məhz həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, 2017-ci ilin turizm göstəriciləri ürəkaçandır. Belə ki, ötən il ölkəmizə 2 milyon 691 mindən çox turist gəlib. Bu, 2016-cı ildən 20 faiz çoxdur. Azərbaycana gələn xarici vətəndaşların ümumi sayında Rusiya ilk yerdə qərar tutub. Sonrakı yerləri Gürcüstan (537 min), İran (362 mindən çox), Türkiyə (300 mindən çox), Birləşmiş Ərəb Əmirlikləri (100 mindən çox), habelə Ukrayna, İraq, Səudiyyə Ərəbistanı və digər ölkələr bölüşür. Turizm sahəsində qoyulan investisiyaların həcmi 91 milyon manat olub. Ötən il ölkəmizə gələn xarici qonaqların bank xərcləri əməliyyatları 1 milyard manatdan çox olub. Bu da 2016-cı illə müqayisədə 70 faiz artım deməkdir. Bu ilin ötən müddəti də turizm sahəsində uğurludur. Belə ki, 2018-ci ilin yanvar-aprel ayları ərzində Azərbaycana dünyanın 182 ölkəsindən 847,6 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 28,3 faizi Rusiya Federasiyası, 21,9 faizi Gürcüstan, 13,4 faizi İran, 11,3 faizi Türkiyə, 4,6 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2 faizi Ukrayna, 19 faizi İraq, 16,5 faizi digər ölkələrin vətəndaşlarıdır.

Bu bir faktdır ki, ölkəmizin turizm sənayesi dünya turizm sənayesinin ayrılmaz tərkib hissəsidir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci ildən Ümumdünya Turizm Təşkilatının tamhüquqlu üzvü olan Azərbaycan bu sahədə beynəlxalq təşkilatlarda uğurla təmsil olunur. Dövlət başçısının turizm sektoruna diqqət və qayğısı beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. Məsələn, 5-7 aprel tarixlərində ölkəmizdə keçirilən beynəlxalq sərgi çərçivəsində Dünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edilmişdir. Dünya Turizm Təşkilatının baş katibi dövlətimizin başçısına Azərbaycanın turizm sahəsində böyük potensialının olduğunu, son illərdə turizmin inkişaf etdiyini, ölkəmizdə bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərin keçirildiyini xüsusi vurğulamışdır.

Ümumiyyətlə, turizmlə məşğul olan digər strukturlarla birlikdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının bir sıra qurumları da ölkəmizdə turizm sektorunun sürətli inkişafına və daha gəlirli bir sahəyə çevrilməsinə öz töhfələrini verəcəklər.

**Ağalar HACIYEV,**
**Bakı Səyahətlər və Ekskursiyalar Bürosunun direktoru.**

# Nümunəvi uşaq incəsənət məktəbi



Respublikamızda fəaliyyət göstərən uşaq incəsənət və musiqi məktəbləri arasında Bakı şəhərindəki Vaqif Mustafazadə adına 2 saylı Uşaq İncəsənət Məktəbi nümunəvi məktəblərdən biridir.

Məktəb 1940-cı ildən fəaliyyət göstərir. Bu illər ərzində məktəbdə bir çox tanınmış musiqiçilər təhsil almışlar. Onlar indi nəinki respublikamızda, eyni zamanda xarici ölkələrdə də ad-san qazanmışlar. Bu gün adını daşıyan məşhur musiqiçi, pianoçu-cazmen, qeyri-adi istedad sahibi, dünya miqyaslı musiqiçi Vaqif Mustafazadə bu məktəbdə təhsil almışdır. 2 nömrəli məktəb nəinki rayon, eyni zamanda respublika tədbirlərində də fəal iştirak edir. Elə bunun nəticəsidir ki, onların bir çoxu respublika, beynəlxalq müsabiqələrin laureatı və təqaüdçüsüdür. Məktəbin direktoru, əməkdar artist, təcrübəli musiqiçi Akif Süleymanla söhbət edərkən qeyd etdi ki, məktəbdə yaranmış qabaqcıl təcrübənin nəticəsidir ki, hər il bu məktəbin onlarla məzunu respublikamızın incəsənət təmayüllü ali və orta ixtisas məktəblərinə daxil olurlar.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 2014-cü ildən bu məktəbə rəhbərlik edən Akif müəllim sözün əsl mənasında burada əsaslı dönüş yaratmış və bir çox məktəbdaxili islahatlar aparmışdır. Məktəbdə yaradılan vokal, xalq çalğı alətləri, fortepiano, simli alətlər, rəsm, xoreoqrafiya, nəfəs, zərb alətləri və nəzəriyyə şöbələri fəaliyyət göstərir.



Akif müəllim qeyd etdi ki, məktəbdə Q.Qarayevin 100 illiyinə, Xocalı soyqırımına, Novruz bayramına, Konservatoriya günü, Musiqi günü və Uşaqların müdafiəsi günü, dahi bəstəkarların həyatına həsr olunmuş günlər, Dirçəliş günü, Bayraq günü və sair təqvim günlərinə həsr olunmuş tədbirlər keçirilmişdir. Heç şübhə yoxdur ki, məktəbin müəllim və şagird kollektivi rayon icra hakimiyyəti və Bakı şəhər mədəniyyət baş idarəsinin təşkil etdiyi tədbirlərdə də fəal iştirak edir. Qeyd etməliyik ki, son zamanlar Bakı şəhər mədəniyyət baş idarəsinin qayğısı nəticəsində məktəbin maddi-texniki bazası və musiqi alətlərinə tələbatı məsələsində də dönüş yaranmışdır.

Bu günlərdə məktəbdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş mədəni-kütləvi musiqili tədbir olmuşdur.

Tədbirdə Q.Qarayev, P.Çaykovski, V.Mustafazadə, İ.Bax, N.Paqanin, R.Mirişli, F.Şuben və başqa bəstəkarların əsərləri şagirdlərdən Dəriya Hüseynova, Rəhimə Tağıyeva, Əli Salayev, Lalə Əliyeva, Fərəc Hacıyev və başqalarının ifasında uğurla ifa olunmuşdur.

**Zabit CAVADOV,**
**"Respublika".**

# TAXIL BİÇİNİNDƏ ÇEVİKLİK VƏ OPERATİVLİK TƏMİN EDİLMƏLİDİR

Kənd Təsərrüfatı Nazirliyi yanında "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin (ASC) İdarə Heyətinin sədri Seymur Mövlayev iyunun 6-da Şəki rayonunda taxıl biçininə başlanması münasibətilə fermerlərlə görüşüb, məhsulun vaxtında, itkisiz və mütəşəkkil yığılmasının təşkili ilə bağlı səyyar müşavirə keçirib.



Rayonun Turan qəsəbəsində taxıl sahəsinə baxış keçirən sədr fermerlərin biçinlə bağlı problemləri ilə maraqlanıb. "Aqrolizinq" ASC-nin sədri bildirib ki, yerlərdə fermer və təsərrüfatçılarla mütəmadi olaraq keçirilən bu görüşlərin əsas məqsədi təsərrüfat sahiblərini narahat edən məsələləri, çətinlikləri yerində öyrənmək, araşdırmaq, onların təkliflərini dinləmək, problemlərin həlli yollarını tapmaqdır.

Səhmdar Cəmiyyətin sədri bildirib ki, taxıl biçini mövsümündə kombaynların dislokasiyası müəyyənləşdirilməli, çeviklik və operativlik təmin edilməlidir. "Aqrolizinq"in regional nümayəndəlikləri barədə fermerlər tərəfindən şikayətlər minimum olmalıdır. Bütün kombaynlar ehtiyat hissələri ilə təmin olunmalı, hər bir kombaynın biçin potensialı təhlil edilməli və dəqiqləşdirilməlidir. Risklər tam aradan qaldırılmalıdır. Əsas məqsəd taxıl biçinini vaxtında və itkisiz həyata keçirməkdir.

Səyyar müşavirədə qeyd edilib ki, taxıl biçini mövsümünü daha mütəşəkkil keçirmək məqsədilə daxili qərargah yaradılıb. Qərargah taxıl biçini mövsümü ərzində mütəmadi olaraq biçinin vəziyyəti barədə monitorinqlər aparacaq, kombaynların dəqiq dislokasiyasını və nasazlıqların aradan qaldırılmasını operativ qaydada təmin edəcək.

**Nəriman CAVADOV,**
**"Respublika".**

AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİNİN QEYDİYYAT VƏ NOTARİAT BAŞ İDARƏSİ

AÇIQ TENDER ELAN EDİR

Tender predmeti - Qeydiyyat və notariat baş idarəsinin istismarında olan informasiya sistemlərinin avadanlıq kompleksinə texniki dəstək üzrə xidmətlərin göstərilməsinin satınalınması

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - 2018-ci il ərzində.

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 700 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Azadlıq prospekti 72 ünvanından (Əlaqələndirici şəxs: Axundov Elnur Camal oğlu, telefon: 404-42-03, faks 441-02-36) ala bilərlər.

Tenderdə iştirak haqqı bütün hallarda geri qaytarılmır.

Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi

Hesab №
AZ61CTRE00000000000002088403
VÖEN: 1300498771
Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesab
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T.BİK: CTREAZ 22
Büdcə təsnifatının kodu: 142340
Büdcə səviyyəsinin kodu: 7

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 iyul 2018-ci il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 26 iyul 2018-ci il saat 17:00-dək Bakı şəhəri, Azadlıq prospekti 72 ünvanında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri Bakı şəhəri, Azadlıq prospekti 72 ünvanı Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsində 27 iyul 2018-ci il tarixdə saat 15:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.

AZƏRBAYCAN RESPUBLİKASI ƏDLİYYƏ NAZİRLİYİNİN QEYDİYYAT VƏ NOTARİAT BAŞ İDARƏSİ

AÇIQ TENDER ELAN EDİR

Tender predmeti - Qeydiyyat və notariat baş idarəsinin istismarında olan informasiya sistemlərinin proqram təminatı kompleksinə texniki dəstək üzrə xidmətlərin göstərilməsinin satınalınması

Malların, işlərin və xidmətlərin təchiz olunma müddəti - 2018-ci il ərzində.

Tender iştirakçıları öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etməlidirlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 400 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Azadlıq prospekti 72 ünvanından (Əlaqələndirici şəxs: Axundov Elnur Camal oğlu telefon: 404-42-03, faks 441-02-36) ala bilərlər.

Tenderdə iştirak haqqı bütün hallarda geri qaytarılmır.

Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsi

Hesab №
AZ61CTRE00000000000002088403
VÖEN: 1300498771
Bank adı: Dövlət Xəzinədarlıq Agentliyi
Kodu: 210005
VÖEN: 1401555071
Müxbir hesab
AZ41NABZ01360100000000003944
S.W.İ.F.T.BİK: CTREAZ 22
Büdcə təsnifatının kodu: 142340
Büdcə səviyyəsinin kodu: 7

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün yazılı müraciət;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü ərzində qüvvədə olmalıdır);
- Azərbaycan Respublikasında vergilər və digər icbari ödənişlər üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanının arayışı;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi (hüquqi şəxslər üçün), qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- müvafiq mallar üzrə uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanunun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 iyul 2018-ci il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 26 iyul 2018-ci il saat 17:00-dək Bakı şəhəri, Azadlıq prospekti 72 ünvanında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri Bakı şəhəri, Azadlıq prospekti 72 ünvanı Ədliyyə Nazirliyinin Qeydiyyat və notariat baş idarəsində 27 iyul 2018-ci il tarixdə saat 11:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri komissiyanın iclasında iştirak edə bilərlər.

*Yaqub Mahmudov*

# Saxtakarların yalançı elmi, yaxud ermənisayağı "tarix"

## *Şərqi və Qərbi Ermənistan haqqında uydurma*

**(əvvəli 8 iyun tarixli sayımızda)**

**Erməni müəlliflərinin o dövrdə Armeniya sərhədlərinin keçmiş Urartu dövlətinin sərhədlərilə uyğunluğu haqda iddialarının və satraplıq sərhədlərini şimalda (Gürcüstanın Cavaxetiya rayonu) və qərbdə (Urmiya gölündən Kürün orta axarına qədər Azərbaycan torpaqları) genişləndirmək cəhdlərinin də heç bir elmi əsası yoxdur.**

### Yalançı tarixçilər qondarma "Böyük Ermənistan" haqında əfsanəni necə yaratmışlar

Erməni müəllifləri və onların yedəyində gedən bəzi "tarixçilər" heç bir mənbəyə əsaslanmadan "böyük Ermənistan" anlayışının məhz e.ə. III əsrin sonlarında meydana gəldiyini hesab edirlər. Və sübut etməyə çalışırlar ki, guya "Böyük Ermənistan" anlayışı iki mənada - coğrafi və siyasi mənalarda işlənmişdir. Coğrafi anlayış kimi bu ifadə guya **e.ə. 220-ci ildən** məlumdur. Saxtakarlar e.ə. 220-ci ili böyük fəxarətlə "Böyük Ermənistan" anlayışının "doğum günü" elan edirlər. Lakin məhz həmin ildə Selevki hökmdarı III Antiox "erməni çarlığı"nı ələ keçirmiş və onu Ermənistanın "əsas vilayəti" olan Van gölü hövzəsi ilə "birləşdirmişdir". Əcəb məntiqdir! **E.ə. 220-ci ildə Selevki hökmdarı "erməni çarlığı"nı işğal edir, üstəlik Van gölü hövzəsini də ələ keçirir və bu da "Velikaya Armeniya"nın yaradılması kimi qələmə verilir.**

Məlumdur ki, Selevki hökmdarı III Antiox e.ə. 223-cü ildə hakimiyyətə gəlmiş və ilk növbədə Mada (Midiya) satrapı Molonun və onun qardaşı, Parsa satrapı Aleksandrın təhlükəli üsyanlarını yatırmış, sonra Molonun üsyanına yardım göstərdiyi üçün Atropatenaya hücum etmişdi. Antioxun Atropatena şahı Artabazanla müharibəsi sülhlə bitmişdi. Molonun üsyanını yatırdıqdan sonra III Antiox Suriyada itirilmiş torpaqlarını Ptolemeydən geri almaq üçün müharibə aparmışdı (e.ə. 219-217-ci illər, dördüncü Suriya müharibəsi), e.ə. 212-205-ci illərdə isə o, özünün məşhur şərq yürüşünü həyata keçirmişdi. Yalnız e.ə. 201-ci ildən, yəni bu uğurlu hərbi əməliyyatlar başa çatdıqdan sonra Selevki çarı Sofenanı (Yuxarı Fərat vadisi) və "Ayrarat çarlığı" adlandırılan ərazini işğal etmişdi.

1980-ci ildə Nersisyanın redaktorluğu ilə çap olunmuş "Erməni xalqının qədim zamanlardan bu günə qədərki tarixi"ndə də Sofena və erməni çarlığının işğalı e.ə. 201-ci ildən sonraya aid edilir və göstərilir ki, "erməni dövlətləri" satraplıqlara çevrildilər və Antioxa xidmət edən sərkərdələrə tabe edildilər. Armeniyaya və Sofenaya müvafiq olaraq I Artaksi (Artaşes) və Zariadri (Zarex), Kiçik Armeniyaya isə I Mitridat hökmdar təyin edildilər. **Diqqəti əsas bir məqama cəlb edirik: Nə yuxarıda istinad etdiyimiz kitablarda, nə bizə məlum olan digər mənbələrdə III Antioxun işğallarından sonra "Velikaya Armeniya" coğrafi anlayışının yaranması haqqında söhbət getmir!**

Bununla belə, erməni tarixçiləri inadkarcasına öz "milli dövlətlərinin" yaranması tarixini Fəratın qolu olan Murad-su çayı hövzəsində yerləşən Sofena vilayəti ilə əlaqələndirməyə cəhd göstərirlər. Halbuki Yuxarı Fərat vadisində aşkar olunan numizmatik nümunələrdən də məlum olur ki, e.ə. III əsrin 30-20-ci illərində burada erməni deyil, məhz iranmənşəli elitanın nümayəndələri (Arşama, Abdisar, Kserks, Zariadri) müstəqil siyasət yürütməyə təşəbbüs göstərmişlər.

Armeniya və Sofena Selevkilərdən qopmuş Parfiya, Perside, Elimaida, Xarakene kimi sözün hərfi mənasında "Milli dövlətlər" olmamışlar. Hər iki çarlığın ilk hökmdarları (Zariadri, Arşama, Abdisar, Xşayarşa, Artaxşayasi) erməni deyil, qərbi İran (yəni Midiya) adları daşıyırdılar. Bununla belə, erməni saxtakarları uydurulmuş "Velikaya Armeniya"nı dünyaya təkcə coğrafi anlayış deyil, həm də bir siyasi anlayış kimi - "dövlət" kimi təqdim edərək bu istilahın yaranmasını ermənimənşəli olmayan Artaksinin çarlığı dövrülə əlaqələndirirlər.

Erməni tarixçilərinin "atası" Moisey Xorenski Artaksini (Artaşesi) "midiyalı" adlandırırdı. Strabonun məlumatında deyilir: "...Deyirlər ki, keçmiş dövrlərdə, kiçik **bir ölkə olan Armeniya** Artaksi və Zariadrinin apardığı müharibələr nəticəsində genişləndirilmişdir. Onlar ilk əvvəl *Böyük Antioxun sərkərdələri* olmuş, onun məğlubiyyətindən sonra isə çarlara çevrilmişlər; biri Sofenanın, Akilisenanın, Odomantinanın və bəzi başqa vilayətlərin, digəri isə Artaksatanın ətrafını əhatə edən ölkənin çarları olmuşlar. Onlar birlikdə **ətrafda olan xalqların vilayətlərinin** bir hissəsini qəsb edərək öz hakimiyyətləri altında olan yerləri genişləndirmişlər. Midiyalıların əlindən Kaspiananı, Favnitidanı, Basoropedanı; iberiyalıların əlindən Pariadrinin dağətəyi bölgələrini, Xorzenanı və Kür çayının o biri tərəfində olan Qoqarenanı, xaliblərin və mosineklərin əlindən Karenitidanı və Kiçik Armeniya ilə həmsərhəd olan və ya onun bir hissəsi olan Kserksenanı; kataonların əlindən Akilisenanı və Antitavrın ətrafında olan vilayəti, nəhayət suriyalıların əlindən Taronitidanı almışlar. Buna görə indi bu xalqların hamısı bir dildə danışır".

Strabonun qeyd etdiyi Selevki sərkərdələri Artaksi və Zariadri tərəfindən qonşu xalqlardan zəbt olunmuş torpaqları erməni tarixçiləri uydurma "Böyük Ermənistan"a aid edirlər. Məsələn, J.A.Arutyunyanın məqaləsində oxuyuruq: "Bunların hamısı *(yuxarıda qeyd olunan torpaqların - Y.M)* erməni torpaqlarıdır, əhali isə erməni dilində danışırdı". Sonra elə həmin müəllif Strabonu təhrif edərək yazır: "I Artaşes və onun varisləri olan Orontlar işğalçı müharibələr aparmamışlar".

Beləliklə, erməni müəllifləri zəbt edilmiş torpaqları uydurma "Böyük Ermənistan"ın tərkib hissəsi kimi təqdim edirlər. Bu məntiqə görə onda gərək müasir türklər tarixdə mövcud olmuş bütün türk imperiyalarına "öz torpaqları kimi" ərazi iddiaları irəli sürsünlər. Azərbaycanlılar böyük Səfəvi imperiyasının torpaqlarını, müvafiq olaraq ingilislər, ispanlar, portuqallar, ruslar - öz imperiyalarını özlərinə geri qaytarmalıdırlar!

### Uydurulmuş "Böyük Ermənistan"ın Atropatena ərazilərini işğal etməsi haqda yalan

Qeyd edilməlidir ki, Kaspiananın Midiya-Atropatenadan Selevki sərkərdələri Artaksi və Zariadri tərəfindən alındığını yazan Strabonun əksinə olaraq, erməni "tarixçiləri" bu vilayətlərin işğalına "dənizdən-dənizə uzanan Ermənistan"ın mövcudluğunun xeyrinə olan dəlillərdən biri kimi göstərirlər. Lakin, Ermənistanın Paytarakan, Xəzər dənizinədək uzanan Mil-Muğan düzünün bir hissəsini əhatə edən Kaspiana üzərində nəzarətinin bərqərar edilməsi məlumatı tarixi reallıqdan uzaqdır və mənbələrdə təsdiqini tapmır. Məlumdur ki, Armeniya çarlarının şərqdə yürüş etdikləri son məntəqə Ekbatana (indiki Həmədan) şəhəri olub. I Qotarza qarşı hərbi əməliyyatlar zamanı Armeniya çarı II Tiqran e.ə. 87-ci ildə Parfiya çarının iqamətgahı yerləşən Ekbatana şəhərini mühasirəyə almış və Adrapana qalasını yandırmışdır. Lakin heç bir mənbədə II Tiqranın qoşunlarının Xəzər sahillərinə qədər gəlib çıxdığı qeydə alınmayıb.

Eyni zamanda, ehtimal etmək olar ki, I Artaksi müvəqqəti olaraq Kaspiananın cənub-qərb hissəsini, yəni Armeniyanın şimal-şərq vilayəti olan Araksenanın yaxınlığında olan torpaqları öz siyasi təsir dairəsinə sala bilmişdi. O zaman siyasi böhran keçirən Atropatena itirilmiş torpaqlarını qaytara bilmədi və Kaspiana Albaniyanın tərkibinə daxil oldu.

Armeniya dövlətinin qısamüddətli dirçəlişi e.ə. 165-ci ildə onun banisinin IV Antioxla müharibədəki məğlubiyyətilə sona çatır. Nəticədə, Armeniya əvvəllər istila etdiyi bir çox torpaqlardan, o cümlədən Cənubi Qafqazda ələ keçirdiklərindən məhrum olur. Arazın sağ sahilindəki torpaqlar öz əvvəlki sahiblərinə - albanlara qayıdır və Armeniya çarları o torpaqları həmişəlik itirirlər. Armeniya çarı I Artavaz da növbəti uğursuzluğa tuş gələrək e.ə. II əsrdə Parfiya şahı II Mitridata məğlub olur. Yalnız vaxtı ilə parfiyalıların girovu olmuş II Tiqranın zamanında Armeniya əvvəlki mövqelərini qaytarmağa cəhd edir. Strabonun məlumatına görə, II Tiqran "Atropatena və Qordiyena hökmdarlarını və onların köməyi ilə Mesopotamiyanın qalan hissəsini tabe etdi".

Yunan coğrafiyaçısının "Atropatenanın tabe edilməsi" haqda qeyd etdikləri erməni tarixçilərinə və ermənipərəst müəlliflərə Atropatenanı "Böyük Ermənistan"ın tərkibinə daxil etməyə "əsas verib". Əslində, burada söhbət Atropatenanın işğalından yox, onun hökmdarının asılı vəziyyətdə olmasından gedir. Roma tarixçisi Dion Kasinin yazdıqları da bunu təsdiq edir: "Atropatena çarı Mitridat II Tiqranın qızına evlənmişdi". Qədim dövrün bütün ölkələrində sülalələr arasında qohumluq münasibətlərinin qurulması dövlət maraqlarına, ölkələr arasında dostluq əlaqələrinin möhkəmlənməsinə xidmət edir, müttəfiqlik münasibətlərinin yaradılması və möhkəmləndirilməsi üçün zəruri akt kimi qəbul edilirdi. Digər tərəfdən, II Tiqranın onsuz da loyal olan kürəkəninin ölkəsini işğal etməsinə ehtiyac yox idi. Bu məsələylə bağlı digər ilk mənbəyə müraciət etmək məqsədəuyğundur. Plutarx yazır ki, Tiqranakertin Lukull tərəfindən mühasirəsi zamanı (e.ə. 69-cu il) "Tiqranın köməyinə öz qoşunlarının başında midiyalılar (yəni atropatenalılar) və adiaben çarları gəldilər... Bir də onlara Araz sahillərindən Tiqranın vəd və hədiyyələrlə cəlb etdiyi azad tayfalar qoşuldular". E.ə. 68-ci ilin payızında Artaksat şəhəri yaxınlığındakı döyüşlərdə müttəfiqlik vəzifəsinə sadiq qalan atropatenalılar yenə də II Tiqranın yanında idilər.

Yunan tarixçisinin bu maraqlı məlumatı erməni tarixçilərinin və onların havadarlarının II Tiqranın dövlətinin hüdudlarını şərqə doğru - Arazboyu Azərbaycan torpaqları da daxil olmaqla Xəzər dənizinə qədər uzatmaq cəhdlərinə əsaslı zərbə vurur. II Tiqranın hakimiyyəti dövründə Atropatena və Armeniya çarlığı müttəfiqlik münasibətlərində idilər. Atropatenanın Armeniya çarlığının tərkibinə daxil olmaqla müstəqilliyini itirməsi haqda söhbət belə gedə bilməz. E.ə. 66-cı ildə II Tiqran müqavimətsiz Pompeyə təslim oldu, yalnız "ata ocağı"nı qoruyaraq alçaldıcı sülhə imza atdı; bu zaman onun atropatenalı kürəkəni isə Pompeylə sülh bağlayıb ölkəsinin, yəni Atropatenanın bütövlüyünü qoruya bilmişdi.

Əgər Atropatena göstərilən dövrdə, erməni tarixçilərinin iddia etdikləri kimi, müstəqil dövlət deyildisə, onda onun qoşunlarının II Tiqrana kömək göstərməsi faktı necə izah edilməlidir? Əgər Atropatena həqiqətən də Armeniyanın tərkibində olubsa, o halda Pompey hansı səbəbdən Atropatenanın hökmdarıyla sülh müqaviləsi bağlamışdı?

Mark Antoni və Oktavian Avqust zamanında Armeniya Romanın bufer zonasına çevrilərkən onu idarə etmək Atropatena şahına həvalə olunmuşdu. O da qeyd olunmalıdır ki, e.ə. 66-cı ildə Qafqazda Pont çarı VI Mitridatı təqib edən Pompeyə alban və iberlərin müttəfiq qoşunları müqavimət göstərmişlər. Ermənilərin hərbi döyüşlərin Qafqaz cəbhəsində romalılara qarşı döyüşlərdə iştirak etməmələri onların heç də region üzərində nəzarəti itirdiklərilə yox, ümumiyyətlə, burada yaşamadıqlarıyla bağlıdır.

Beləliklə, nə Strabon, nə digər mənbələr tarix saxtakarlarının iddialarından fərqli olaraq, Artaksinin dövlətini "Böyük Ermənistan" adlandırmır və ümumiyyətlə onun həqiqətdə necə adlandırıldığı haqda məlumat verilmir. Hətta indiki Ermənistan respublikasının ərazilərindən tapılan mərz daşlarında Artaksinin yaratdığı dövlətin adı çəkilmir. **Belə ki, 1906, 1932, 1977-ci illərdə Qərbi Azərbaycan ərazisində, Zəngəzurda arami dilində (erməni dilində yox!) tərtib edilmiş Artaxşasinin (yaxud Artaksi) 6 kitabəsi tapılmışdır. Kitabələrin başlıqlarında əhəmənilərin yazı mədəniyyətinin ruhu aşkar duyulur. Artaxşayasi də öz titulunda əhəmənilərdən qalma ənənənin davamı kimi, hökmdarı olduğu dövlətin adını çəkmir, yalnız atasının adını və mənsub olduğu nəsli xatırladır. İki kitabədə: "Artaxşayasi, çar Zariadrinin oğlu" və "Artaxşayasi, xoş niyyətli Ervand nəslindən, Zariadrinin oğlu"** deyən I Artaksi, Əhəmənilər sülaləsinə yaxınlığını və nəticə etibarilə qanuni hakimiyyətin nümayəndəsi olduğunu göstərməyə çalışmışdır. Bu fakt özü də Artaxşayasi və Zariadrinin ermənimənşəli olmadığını sübut edir. Maraqlıdır ki, hər üç ad qədim İran dilləri əsasında izah olunur. Belə ki, Artaxşayasi - "Müqəddəs Həqiqətin (=Artanın) hakimiyyətində", Zariadri - "Qızıllı", Ervand<a-ravan "sakit olmayan", "çılğın" mənalarını verir.

Bəs görəsən Artaksinin yaratdığı dövlət onun öz dövründə necə adlanıb? Yəqin ki, Selevkilər imperiyası və bəzi başqa ellin dövlətləri kimi, bu dövlətin də rəsmi adı olmayıb və qonşu ölkələrdə o, "hansısa hökmdarın sahib olduğu yer" kimi tanınıb. Strabonun Artaksini "Artaksatanın ətrafındakı ölkənin çarı", onun varisi Tiqranı *"sözün həqiqi mənasında Armeniyanın"* **(yəni bu ölkənin Artaksinin zəbt etdiyi torpaqları əhatə etməyən hissəsinin)** hökmdarı, Polibinin Artaksini Armeniyanın **"ən böyük hissəsinin çarı"** adlandırılması bunu sübut edir.

**(davamı növbəti saylarımızda)**

# DÜNYA BUGÜN

**FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR**

## TRAMP: BAŞ TUTACAQ SAMMİT KXDR-ə İŞIQLI GƏLƏCƏK TƏMİN EDƏCƏK



ABŞ prezidenti Donald Tramp Şimali Koreya lideri Kim Çen Inla keçiriləcək sammitin KXDR-ə “işıqlı gələcək” təmin edəcəyini bildirib. “APA”nın məlumatına görə, D.Tramp bu barədə Yaponiyanın baş naziri Sindzo Abe ilə Vaşinqtonda keçirdiyi birgə mətbuat konfransında qeyd edib.

Trampın sözlərinə görə, Sinqapurda baş tutacaq sammitdə Koreya müharibəsinin bitməsinə dair müqavilə də imzalana bilər. ABŞ prezidenti bildirib ki, Pxenyanla münasibətlərin yaxşılaşdırılması sadə bir məsələ olmayacaq.

“Biz belə bir müqaviləyə imza atsaq, bu, ilk addım ola bilər. Belə bir razılaşmaya imza atmağımız mümkündür, bunu həmin tərəflərlə də, başqaları ilə də müzakirə edirik. Ancaq bu, yalnız başlanğıcdır. Ümid edirəm ki, görüş Şimali Koreya üçün işıqlı gələcəyin başlanğıcı olacaq”, - deyə ABŞ prezidenti bəyan edib.

Eyni zamanda, ABŞ-ın dövlət katibi Mayk Pompeo qeyd edib ki, Şimali Koreya ABŞ tərəfinə Koreya yarımadasının nüvəsizləşdirmə prosesinə hazır olduğunu artıq təsdiqləyib. Onun sözlərinə görə, Vaşinqton və Pxenyan planlaşdırılmış danışıqlara çox ciddi yanaşır.

Bununla yanaşı, Mayk Pompeo bildirib ki, Koreya yarımadasının nüvəsizləşdirilməsi iyunun 12-də Sinqapurda baş tutacaq Donald Tramp-Kim Çen In sammitinin nəticəsi ola bilər.

Mayk Pompeo həmçinin vurğulayıb ki, əgər diplomatik proses yolunda getməsə, Şimali Koreya ilə münasibətdə sanksiyalar daha sərtləşəcək. O əlavə edib ki, nüvəsizləşdirmə Şimali Koreya qarşısında yeni imkanlar yaradacaq.

## QƏZZADA TOQQUŞMALAR: 2 FƏLƏSTİNLİ HƏLAK OLUB 514 NƏFƏR XƏSARƏT ALIB



Qəzza zolağı sərhədində iyunun 8-də İsrail hərbçiləri ilə fələstinlilər arasında baş verən toqquşmalar nəticəsində 2 nəfər həlak olub. “APA”nın Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, bunu Fələstinin Səhiyyə Nazirliyinin Qəzzadakı nümayəndəsi Əşrəf əl-Kidra bildirib.

“Bu gün Qəzzanın şərq sərhədində toqquşmalar nəticəsində 2 nəfər ölüb, daha 514 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb”, - deyə Əşrəf əl-Kidra qeyd edib.

Məlumat üçün qeyd edək ki, martın 30-dan etibarən fələstinlilər Qəzza zolağının sərhədində Böyük Qayıdış Yürüşünə başlayıb. Yürüşdə məqsəd dünya ictimaiyyətinin diqqətini müxtəlif illərdə hazırkı İsrail ərazisində öz evlərindən qovulmuş fələstinlilərin probleminə cəlb etməkdir. İndiyədək İsrail hərbçiləri ilə toqquşmalarda 125 fələstinlinin həlak olduğu bildirilir.

## KVİRİKAŞVİLİ: QƏTLLƏ BAĞLI MƏHKƏMƏ SUALLAR DOĞURUB



“Birinci instansiya məhkəməsinin Tbilisinin Xorava küçəsində baş vermiş faciə ilə bağlı qərarı bizim də aramızda çoxlu suallar doğurub”. “APA”nın məlumatına görə, bu barədə Gürcüstanın baş naziri Giorgi Kvirikaşvili hökumətin iclasında çıxışı zamanı qeyd edib.

Məlumata görə, Giorgi Kvirikaşvili bildirib ki, iki gəncin qətli ilə nəticələnmiş faciə cəmiyyətdə ciddi narahatlıq yaradıb. Baş nazir Tbilisinin Xorava küçəsində iki yeniyetmənin qətlini hökumət üçün ciddi çağırış adlandırıb.

G. Kvirikaşvili qeyd edib ki, Daxili İşlər Nazirliyi cinayətin bilərəkdən gizlədilməsi, həmçinin şahidlərə mümkün təzyiqin göstərilməsi istiqamətində təhqiqatı bərpa edib.

Qeyd edək ki, ötən il dekabrın 1-də Tbilisinin 51 saylı məktəbinin 16 yaşlı iki şagirdi Xorava küçəsində mübahisə zamanı qətlə yetirilib. Tbilisi şəhər məhkəməsinin iş ilə bağlı qərarı yeniyetmələrin doğmaları ilə yanaşı cəmiyyətdə də kəskin narazılıq və etiraza səbəb olub.

## Y.STOLTENBERQ TÜRKİYƏ VƏ YUNANISTANI TƏMKİNLİ OLMAĞA ÇAĞIRIB




NATO-nun baş katibi Yens Stoltenberq Alyansın müdafiə nazirləri yığıncağının ilk günündən sonra mətbuat mənsublarına açıqlama verib. Bu barədə “TRT” telekanalı məlumat yayıb.

Yunanıstanın Türkiyədəki 15 iyul çevriliş cəhdindən sonra qaçan əsgərləri sərbəst buraxması ilə əlaqəli suala cavab verən Yens Stoltenberq iki ölkə arasındakı gərginliyi aradan qaldırman üçün həm Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, həm də Yunanıstan rəsmilərilə görüşdüyünü bildirərək tərəfləri təmkinli və sakit olmağa çağırdığını bəyan edib.

Eyni zamanda, Yens Stoltenberq NATO-nun Müştərək Qüvvə Komandirliyinin qərargahının ABŞ-da Norfolkda olması və Müştərək Dəstək və Fəallıq Komandirliyinin isə Almaniyanın Ulm şəhərində yerləşdirilməsi barədə qərara gəlindiyini qeyd edib.

Bununla yanaşı, alyansın baş katibi NATO-nun Komanda tərkibindəki personal sayına daha 1200 nəfər daxil etdiklərini vurğulayıb.

Stoltenberq son 4 ildə ardıcıl müttəfiqlərin cəmi müdafiə xərclərində artım olduğunu dilə gətirərək deyib: “Bütün müttəfiqlər müdafiə xərclərini ixtisar etməyi dayandıraraq müdafiə xərclərini artırdı. Alyansa üzv ölkələrin əksəriyyəti isə 2024-cü ilədək büdcələrinin ən azı 2 faizini müdafiə xərcinə ayırmağı planlaşdırır.

Verilən xəbərə görə, baş katib Kiber Əməliyyatlar Mərkəzi qurulmasını da qərara aldıqlarını vurğulayıb.

## TÜRKİYƏ İRAQIN ÜÇ BÖLGƏSİNƏ ZƏRBƏLƏR ENDİRMƏK NİYYƏTİNDƏDİR



İraq hökuməti PKK terror qruplaşmasının silahlı dəstələri ilə bacarmayacağı təqdirdə Ankara bu ölkənin Qəndil, Sincar və Mahmur bölgələrinə zərbələr endirəcək. “APA”nın Türkiyə mətbuatına istinadən verdiyi xəbərə görə, bu barədə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib.

Eyni zamanda, verilən xəbərə əsasən, Türkiyə DİN-in rəhbəri Suleyman Soylu İraqın Hakurk rayonundakı obyektlərin əksəriyyətinin Türkiyə ordusunun nəzarətinə keçdiyini, hərbçilərin İraqın 26-27 kilometrliyinədək irəlilədiyini bildirib. Nazir həmçinin PKK düşərgəsinin yerləşdiyi Qəndil dağlarını son hədəf olduğunu bildirib.

Bununla yanaşı, Türkiyə XİN-in rəhbəri Mövlud Çavuşoğlu isə bildirib ki, Ankara İraqın şimalında PKK ilə mübarizədə əməkdaşlıq məsələlərini ABŞ, İraq və bu ölkənin kürd muxtariyyətinin rəhbərliyi ilə müzakirə edir.

## NASA MARSDA MÜHÜM KƏŞFLƏ BAĞLI AÇIQLAMA YAYIB



ABŞ-ın “Curiosity” kəşfiyyat qurğusu Marsda Qeyl kraterinin özülündə üzvi maddə aşkarlayıb. Bu barədə “TRT” telekanalı ABŞ-ın Aeronavtika və Kosmosun Araşdırılması üzrə Milli İdarəsinə (NASA) istinadən məlumat yayıb.

Qeyd olunub ki “Curiosity” 2012-ci ildən Marsda araşdırma aparır. Onun Qeyl kraterində apardığı araşdırma nəticəsində 3,5 milyard illik qayalıqda üzvi maddə aşkar edilib.

Alimlər bildiriblər ki, Marsdan gələn nümunələrə qırmızı planetdə qədimdə yaşayışın olması, yaşayış üçün qida mənbəyi, yaxud başqa bir həyatın mövcudluğu kimi baxmaq olar.

NASA-nın Kaliforniyadakı laboratoriyasının əməkdaşı Aşvin Vasavadanın sözlərinə görə, əgər qədim zamanda orada yaşayış olubsa, bu, orada həyat izlərinin yeni detallarının tapıla biləcəyi şansını artırır.

Qeyd edək ki, Marsın atmosferində metanı ölçmək üçün lazer spektrometrindən istifadə edilib. Mövsümi olaraq planetdə metanın artdığı da təsdiqlənib.

Nümunələr qədim zamanlarda Marsda mikroorqanizmlərin olduğunu, hətta indi də tapıla biləcəyini ehtimal etməyə imkan verir. ■


## AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI GƏNCƏ BÖLMƏSİ

## AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) lot üzrə keçirilir:**
**LOT- 1: Cari təmir işləri;**

Tenderdə iştirak etmək üçün iddiaçılar lot üzrə 100 manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Gəncə şəhəri, Heydər Əliyev prospekti, 419 ünvanından ala bilərlər.

Əlavə məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət etmək olar.

**Tağıyev Rasim Mustafa oğlu.**
**Tel./fax: (022) 256-58-29**
**Mobil tel. (050) 329-46-17**
**AZ 2003, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 419.**

*Bank Rekvizitləri*
*Adı: Dövlət Xəzinədarlıq Agentliyi*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab:*
*AZ41NABZ01360100000000003944*
*SWİFT CTREAZ22*
*AMEA Gəncə Bölməsi*
*Hesab: AZ AZ74CTRE00000000000004130601*
*VÖEN: 2304071271*
*Kapital Bank Gəncə Filialı*
*Kodu: 200275*
*VÖEN: 9900003611*
*Müxbir hesab:*
*AZ37NABZ01350100000000001944*
*H/B: AZ28AİIB45010749442700720127*
*SWİFT BİK AİİBAZ 2X*

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tender iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*-tenderdə iştirak haqqının ödənilməsi;*
*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*-tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş mailyyə hesabatının surəti;*
*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində iki nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilində tərcümə olunmalıdır).

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün bağlı zərfləri 26 iyul 2018-ci il tarixində saat 17:00-a kimi aşağıdakı ünvana təqdim etməlidirlər: AZ 2003, Gəncə şəhəri, Heydər Əliyev prospekti, 419 ünvanına təqdim etməlidir.

İddiaçıların təklifləri 27 iyul 2018-ci il saat 11:00-da göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndəsi iştirak edə bilər.

**Tender Komissiyası.**

## BİLDİRİŞ

**“Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin Salyan rayon bölməsində təmir işlərinin satınalınması məqsədi ilə keçirdiyi kotirovka sorğusunun “Respublika” qəzetinin 16.05.2018-ci il tarixli nömrəsində dərc edilmiş nəticəsi ləğv olunur.**

**Tender Komissiyası.**

AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

RESPUBLİKA

REKLAM VƏ ELAN XİDMƏTİ

**441-20-23**

## “Azərbaycan Sənaye Korporasiyası” ASC-də proqram təminatlarının quraşdırılması, müvafiq təlimlərin keçirilməsi, şəbəkə və serverlər avadanlıqları və virtuallaşma üçün proqram təminatlarının satınalınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

**Tender 4 lot üzrə keçiriləcəkdir.**

**Lot 1 - “Azərbaycan Sənaye Korporasiyası” ASC-də 1C proqram təminatının quraşdırılması və müvafiq təlimlərin keçirilməsi;**

**Lot 2 - “Azərbaycan Sənaye Korporasiyası” ASC-də Hesabatlılıq Sistemi (Cyber Bİ) proqram təminatının quraşdırılması və müvafiq təlimlərin keçirilməsi**

**Lot 3 - “Azərbaycan Sənaye Korporasiyası” ASC-də Kargüzarlıq proqram təminatının quraşdırılması və müvafiq təlimlərin keçirilməsi**

**Lot 4 - “Azərbaycan Sənaye Korporasiyası” ASC üçün şəbəkə və serverlər avadanlıqları və virtuallaşma üçün proqram təminatlarının alınması**

Tenderdə iştirak etmək istəyənlər hər lot üzrə 100 (yüz) manat iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 40C ünvanından (əlaqələndiri şəxs Nihad Axundov, tel.: - (+99412) 5059511) əldə edə bilərlər.

*Bankın adı: “Azərbaycan Beynəlxalq Bankı”nın Mərkəz filialı*
*Swift Code: İBAZAZ2X*
*Bankın ünvanı: Bakı, Z.Tağıyev küçəsi,3.*
*Müxbir hesabı:*
*AZ03NABZ01350100000000002944*
*Kod: 805722*
*Bank VÖEN:9900001881*
*Alan: “Azərbaycan Sənaye Korporasiyası” ASC*
*Alanın hesabı:*
*AZ31İBAZ38060019446065857204*
*VÖEN: 1305305281*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün ərizə;*
*- iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- iddiaçının tam adı, ünvanı, hüquqi statusunu təsdiq edən sənəd (surəti) və bank rekvizitləri;*
*- tender təklifinin ən azı 1 faizi həcmində bank təminatını təsdiq edən sənəd (bank təminatı zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında arayış;*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməmiş, vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

İddiaçının tender təklifindəki qiymət xidmətlərin qiymət dəyərindən başqa, nəqliyyat, vergi, sığorta və digər xərclər nəzərə alınmaqla göstərilməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 04 iyul 2018-ci il saat 17:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş və ikiqat zərflərdə 12 iyul 2018-ci il saat 17:00-a qədər AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 40C təqdim etməlidirlər.

Göstərilən vaxtlardan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 13 iyul 2018-ci il saat 11:00 AZ1065, Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 40C ünvanda açılacaqdır.

Tenderin keçirilməsi ilə bağlı əlavə məlumat əldə etmək üçün “ASK” ASC-nin əməkdaşı Nihad Axundovla (tel.: 012 505-95-11) əlaqə saxlamaq mümkündür.

**Tender Komissiyası.**

## Mənəvi Dəyərlərin Təbliği Fondu

## AÇIQ TENDER ELAN EDİR

**Tender 4 (dörd) lot üzrə keçirilir:**

**Lot 1 - Mənəvi Dəyərlərin Təbliği Fondunun 2018-ci ildə Bakı şəhərində təşkil edəcəyi konfranslar.**

**Lot 2 - Mənəvi Dəyərlərin Təbliği Fondunun “Mənəvi dəyərlərimiz Azərbaycançılıq ideologiyasının tərkib hissəsidir” mövzusunda 2018-ci ildə təşkil edəcəyi seminar-müşavirələr.**

**Lot 3 - Mənəvi Dəyərlərin Təbliği Fondunun “Mənəvi dəyərlərimiz-dünən, bu gün, sabah” mövzusunda 2018-ci ildə təşkil edəcəyi seminar-treninqlər.**

**Lot 4 - Mənəvi Dəyərlərin Təbliği Fondunun “Mənəvi dəyərlərin təbliğində fərdi və ictimai amillər” mövzusunda 2018-ci ildə təşkil edəcəyi regional seminarlar.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış, ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Hər lot üzrə iştirak haqqı 100 (yüz) manat.**
**Tel.: 0552445496.**
**Əlaqələndirici şəxs: Vüqar İmamquliyev**
**Ünvan: Bakı şəhəri, 1033-cü məhəllə, Tbilisi prospekti 35.**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

*Adı DXA*
*Kodu: 210005*
*VÖEN: 1401555071*
*Müxbir hesab:*
*AZ41NABZ01360100000000003944*
*S.W.I.F.T. CTREAZ22*
*Adı: Mənəvi Dəyərlərin Təbliği Fondu*
*Hesab №:*
*AZ22CTRE00000000000008478301*
*VÖEN: 1702301551*
*Səviyyə kod Fond 7*
*Büdcə təsnifatının kodu 142340*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*—tenderdə iştirak etmək üçün ərizə;*
*—tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*—tender təklifi (zərflərin açıldığı tarixdən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
*—tender təklifi qiymətinin 2 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
*—Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*—iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;*
*—iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 iyul 2018-ci il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 26 iyul 2018-ci il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 27 iyul 2018-ci il tarixdə saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

**Tender Komissiyası.**

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi

## “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

## AÇIQ TENDERƏ DƏVƏT EDİR

**Tender 1 lot üzrə keçirilir:**
**Fiber optik kabellərin istismarında tələb olunan alətlərin satınalınması**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər **250 (iki yüz əlli) manat (ƏDV xaric) iştirak haqqını** sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

*VÖEN: 9900044741, hesab: AZ14AZPO91015461200420100157, bank: “Azərpoçt” MMC PF 1, kodu: 691011, bankın VÖENi: 9900037711, m/h: AZ76NABZ01350100000000094944, S.W.İ.F.T: AZPOAZ22*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **19 iyul 2018-ci il saat 17:00-dək** aşağıdakı sənədləri “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 2% Bank Zəmanəti istisna olmaqla).

Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
*2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
*3. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
*4. Tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
*5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
*7. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
*8. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
*9. İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*
*10. Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **27 iyul 2018-ci il saat 17:00-a** qədər “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **30 iyul 2018-ci il saat 15:00-da** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Qafarov Elxan Misir oğlu, tel.: (+994 12) 493-84-99**

**Tender Komissiyası.**

Əhədov Bafadar Heydər oğlunun adına məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Abşeron rayon Saray qəsəbə sakini Hüseynov İlxan Baxşeyiş oğlunun adına verilmiş Abşeron DTİ və MHQİ tərəfindən Abşeron İcraiyyə komitəsinin 598 saylı qərarla, 25.12.1989-cu il tarixli Qeydiyyat vəsiqəsi və evin texniki pasportu (reyestr:10469, inventar:1121) itdiyi üçün etibarsız sayılır.

Satınalan təşkilat: Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti. Bildiriş. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin pasportlarının hazırlanması işlərinin kotirovka sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 489 08 20 nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 2018-06-13. 17:00 tarixinədək qəbul olunur. Ünvan: AZ 1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi 27.

Layihə. Satınalan təşkilat: Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti. Bildiriş. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti, Binəqədi rayonu İrəvan Azərbaycan Dövlət Dram Teatrı binasının əsaslı təmiri və yenidənqurulması layihəsinin dəyişikliklərin olunması üçün layihə-smeta sənədlərinin hazırlanması üzrə kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+99412) 489-08-20 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 2018-06-13 17:00 tarixinədək qəbul olunur. Ünvan: Bakı şəhəri, AZ1025, Xətai rayonu, Y.Səfərov küçəsi ev 27. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov.


## ALLAH RƏHMƏT ELƏSİN

**BDU-dan professor İsmayıl Əliyev Azərbaycan Respublikasının Milli Qəhrəmanı, general-leytenant Rövşən Əkbərova, qardaşı**

**ELŞƏN ƏKBƏROVUN**

**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**


**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail: resp@azdata.net**
**www.respublica-news.az**
*“Respublika” qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023
Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Kamal İBADOV**

● **Çapa imzalanmışdır**
**08.06.2018**